

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Nüfuzlu İsrail nəşri: "Qarabağın əsl yerli xalqı Azərbaycan türkləridir"

4





SƏS

№ 113 (6796)

26 iyun 2023-cü il.
Qiyməti 60 qəpik


# Güclü dövlət, güclü ordu, Qalib Lider!

2



# Zəngəzurdan Türk dünyasına




*9 noyabr 2020-ci ildə üç ölkə - Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyannamənin bir bəndi Zəngəzur dəhlizi ilə bağlıdır. Maneəsiz keçidin təmin olunacağı bu dəhlizdən həm Azərbaycan və Ermənistan, həm də Türkiyə, Avropa, Rusiya və İranın faydalanacağı gözlənilir. Burada siyasətdən çox iqtisadi maraqlar var. Zəngəzur dəhlizi ilə Rusiya Yaxın Şərqə və Avropaya, Ermənistan Rusiya və İrana, o cümlədən Avropaya, İran isə bu marşrutla Avropaya, Rusiyaya çıxış əldə etmiş olacaq.*

5

## "Azərbaycan Ordusu öz qüdrətini bütün dünyaya nümayiş etdirdi"



4

## Bəşəriyyəti sarsıdan erməni vəhşiliyi



14

## Mənəvi-əxlaqi dəyərlərimizin təcəssümü: QURBAN BAYRAMI




10

## Azad və abad Laçına əbədi qayıdış!



5

## Cadulardan necə yaxa qurtarmalı?



16

# Güclü dövlət, güclü ordu, Qalib Lider!

***Artıq 3 ildir ki, Azərbaycan Silahlı Qüvvələrinin yaradılması gününü əvvəlkilərdən fərqli olaraq qalib ölkə kimi qeyd edirik. Bu Azərbaycan Prezidenti, Qalib Sərkərdə İlham Əliyevin «Dəmir yumruq» siyasətinin Güclü Ordumuzun əsgər və zabitlərinin 30 illik həsrətə cəmi 44 gündə mümkünsüzü mümkün edən qəhrəmanlığının göstəricisidir. Bu, Xüsusi Təyinatlı Qüvvələr xüsusi peşəkarlıq və qəhrəmanlığının, Silahlı Qüvvələrimizin vahid proqram əsasında inkişaf etməsinin, ulu öndər Heydər Əliyevin Azərbaycan Ordusunun formalaşmasında apadığı uğurlu siyasətin layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən son 20 il ərzində həyata keçirilən “Güclü ordu - güclü dövlət” strategiyasının nəticəsidir.***



*İLHAM ƏLİYEV: "Azərbaycan ordusu yüksək mənəvi xüsusiyyətlərə malikdir, Ali Baş Komandanın əmrlərini tam icra edir və icra edəcək!"*

Prezident, Ali Baş Komandan İlham Əliyev iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib və heyət qarşısında çıxışı zamanı çox mühüm məqamlara toxunub, önəmli mesajlar verib. Dövlət başçısı möhtəşəm tarixi Qələbənin qazanılmasından, Zəfərin mənəvi-siyasi və hərbi-strateji əhəmiyyətindən, Xüsusi Təyinatlı Qüvvələrin xüsusi peşəkarlıq və qəhrəmanlığından, yeni mərhələdə ordu quruculuğunun müasir çağırışlara uyğun davam etdirilməsindən və digər bir sıra mühüm məsələlərdən bəhs edib.

Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı bildirib ki, İkinci qarabağ müharibəsi bütün dünyaya Azərbaycan ordusunun gücünü göstərdi. Çünki bu gün ordumuz vahid proqramm əsasında fəaliyyət göstərir: ”Biz bu gün Silahlı Qüvvələrimizi vahid proqram əsasında inkişaf etdiririk və əminəm ki, yaxın gələcəkdə bizim Ordumuz yeni, yüksək səviyyəyə qalxacaqdır. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür”.

Bəli, bü gün Azərbaycanın Güclü ordusu Ali Baş Komandanın «Güclü ordu, güclü dövlət» konsepsiyasına uyğun fəaliyyət göstərir. Və Aliandanın rəhbərliyi ilə ölkəmizdə komando hərbi hissələrin açılması çox əlamətdar hadisə olmaqla, həm də orduda güclü, dəmir siyasətin olmasının təsdiqidir.

Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı bildirdi ki, Vətən müharibəsindən sonra Müdafiə Nazirliyində Komando Qüvvələri yaradılmışdır və komandoların sayı gündən-günə artır: ”Bütün bunları və müasir döyüş əməliyyatlarını nəzərə alaraq yeni Komando Qüvvələrinin yaradılması mənim tərəfimdən qarşıya bir vəzifə kimi qoyulmuşdur və bu vəzifə uğurla icra edilir”.

## ”VAXTİLƏ “QARABAĞ ERMƏNİSTANDIR VƏ NÖQTƏ” DEYƏN ERMƏNİSTAN RƏHBƏRLƏRİ İNDİ MƏNİM SÖZLƏRİMİ TƏKRARLAYIRLAR: “QARABAĞ AZƏRBAYCANDIR!” YƏNİ, BÜTÜN BUNLAR BİZİM SON İKİ İL YARIM ƏRZİNDƏ APARDIĞIMIZ SİYASƏTİN NƏTİCƏSİDİR”

Zəfər qələbəmizdən iki il yarım keçməsinə baxmayaraq vaxtilə ”Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: ”Qarabağ Azərbaycandır!” yəni, bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir”. Bu fikirləri Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı bildirdi və qeyd etdi ki, əgər son iki il yarım ərzində baş vermiş hadisələr təhlil olunarsa, hər kəs görə bilər ki, hər bir addımımızın arxasında güclü siyasi iradə dayanmışdır, güc dayanmışdır, məntiq dayanmışdır, beynəlxalq hüquq dayanmışdır və hər növbəti addım əvvəlki addımın məntiqi davamı idi. Bu .

## QALİB ÖLKƏNİN QALİB ORDUSUNUN QALİB SƏRKƏRDƏYƏ İNAMININ GÜCÜ İDİ

Dövlət başçımızın qətiyyəti, siyasi iradəsi 2020-ci ilin sonunda 44 günlük Vətən müharibəsində özünü göstərdi. Dünya birliyinə bəlli oldu ki, Azərbaycan qalib ölkədir. Dövlət başçımız dəfələrlə bildirmişdi ki, heç vaxt imkan verə bilmərik ki, bizim tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın: “Birinci erməni dövləti bizim tarixi torpağımızda yaradılıb. Bunu indi bütün dünya bilir, tarixçilər bilir. Əgər kimsə ermənilər üçün ikinci dövlət yaratmaq istəyirsə, bunu öz ərazisində yaratsın, Azərbaycanın ərazisində yox. Bu mövqe tarixi ədalətə əsaslanırdı, biz bunu bəyan edirdik və Ermənistana şans verirdik. Ancaq onlar bu şansdan istifadə etmədilər”.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı bildirdi ki, bu gün Azərbaycan o ölkələrdəndir ki, öz müqəddəratını özü müəyyən edir, heç kimdən asılı deyil və olmayacaq, öz sözünü açıq deyir və müstəqil siyasət aparır! 44 gün davam edən İkinci Vətən müharibəsi bir daha bunu sübut etdi: ”Bundan sonra da Ordumuzun daha da gücləndirilməsi üçün bütün lazımi tədbirlər görüləcək. Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidir”.

Bəli, məhz buna görə bizə qarşı edilən istənilən təxribat cavabsız qalmadığını, hər bir təxribata layiqli cavab verildiyini söyləyən dövlətimizin başçısı onu da vurğuladı ki, bu gün Azərbaycan o ölkələrdəndir ki, öz müqəddəratını özü müəyyən edir, heç kimdən asılı deyil və olmayacaq, öz sözünü açıq deyir və müstəqil siyasət aparır. Yəni, bizim ölkəmiz, sözün əsl mənasında, müstəqil ölkədir, çünki müstəqil siyasət aparmaq iqtidarındadır və bizə bu gücü verən, ilk növbədə, bizim hərbi potensialımızdır və məhz bu gücümüzlə Ermənistanın və onun xarici havadarlarının məkrli planlarını alt-üst etdik.

Dövlətimizin başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, ədalətin təntənəsi idi. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz bütün gücümüzü səfərbər edib bu müharibədə qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq. Düşməni elə rəzil vəziyyətə qoyduq ki, onlar bizim qabağımızda diz çökdülər, ağ bayraq qald0ırdılar və məcbur olub kapitulyasiya aktına imza atdılar.

Bəli, bu Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nəyi necə, nə vaxt edəcəyi siyasətinin göstəricisi idi. I cəsarət və milli ruh nümayişi idi. etdirdik və istədiyimizə nail olduq: ”Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq”.

Bəli, Ali Baş Komandan 44 gün davam edən İkinci Vətən müharibəsində nəyi, nə vaxt edəcəyini bildiyi üçün bu Qələbə qazanıldı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışı zamanı vurğuladı ki, Şanlı Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirdik: ”Bu gün biz öz şanlı Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirdik. Bu gün biz bölgədə söz sahibiyik”.

Və bu gün regionda proseslərin yenə də bizim təkliflərimiz əsasında cərəyan etdiyini diqqətə çatdıran Ali Baş Komandan müharibədən sonrakı ilk aylarda Ermənistanın havadarlarının köhnə tezisləri qəbul etdirməyə çalışdıqlarını bildirərək vurğuladı ki, biz bunu qətiyyətlə rədd etdik və vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: “Qarabağ Azərbaycandır!” Yəni, bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir”.

Bəli, bu Ali Baş Komandanın apardığı diplomatik siyasəti düzgün siyasətdir, uğurlu siyasəti haqq işidir! Bu Vətən savaşında böyük döyüş təcrübəsi toplayan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması, işğaldan azad olunan bölgələrdə xüsusi təyinatlı hərbi hissələrin yaradılması, müasir hərbi texnika və silah-sursatla təchizatı, xüsusən də yeni yaradılan Komando briqadalarının olması bir yenilikdir, Azərbaycanda ilkdir.

Bir sözlə, Ali Baş Komandan İlham Əliyevin hərbi islahatları bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti həm də mahir sərkərdədir. Bu gün Baş Komandanın müəyyən etdiyi konkret planlar, tədbirlər əsasında hərbi islahatlar davam edir və ordumuzun arsenalı daha da gücləndirilir.

Bəli, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Ali Baş Komandanın rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib, regionun və dünyanın 50 güclü orduları sırasına yüksəlib. Və 2022-ci il dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik istiqamətləri üzrə 4 milyard 489 milyon 892 min 429 manat vəsait ayrılıb. 2022-ci ildə müdafiə qüvvələri istiqamətləri üzrə 2 milyard 153 milyon 165 min 727 manat, milli təhlükəsizlik istiqamətləri üzrə 285 milyon 501 min 146 manat, sərhəd xidməti istiqamətləri üzrə 441 milyon 585 min 091 manat, müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar istiqamətləri üzrə 4 milyon 119 min 118 manat, müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər istiqamətləri üzrə 1 milyard 605 milyon 521 min 347 manat, xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə 1 milyard 600 milyon 442 min 500 manat vəsaitin ayrılması nəzərdə tutulub.

Bütün bu islahatlar onu deməyə əsas verir ki, Azərbaycan Silahlı Qüvvələri getdikcə daha da güclənir və dünyanın qüdrətli hərbi güclərindən birinə çevrilir. Əminliklə deyə bilərik ki, həyata keçirilən hərbi islahatlar nəticəsində Azərbaycan Ordusu qüdrətini daha da artıracaq, tam modern hərbi gücə çevriləcək. Məğlub Ermənistan bundan sonra nə qədər pulsuz silah-sursatla təmin edilsə, arsenalını ən müasir texnika ilə zənginləşdirsə belə erməni əsgəri yüksək döyüş ruhlu, xüsusi təyinatlı Azərbaycan əsgərinin qarşısına çıxmağa cürət etməyəcək, çünki buna gücü çatmayacaq. Çünki Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir.

**RƏFİQƏ KAMALQIZI**

# XİN-dən SƏRT CAVAB: “Erməni sakinlərin “hüquq və təhlükəsizliyi” məsələsindən sui-istifadə cəhdləri qəbuledilməzdir”

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ermənistan Xarici İşlər Nazirliyinin 24 iyun tarixli bəyanatına dair şərh yayımlayıb. XİN-nin şərhində qeyd olunur ki, Ermənistan tərəfinin təxribatından sonra Azərbaycanın həyata keçirdiyi təhlükəsizlik və istintaq tədbirləri ilə əlaqədar Laçın sərhəd buraxılış məntəqəsinin fəaliyyətinin müvəqqəti olaraq məhdudlaşdırılmasının “blokada və etnik təmizləmə” kimi təqdim edilməsi Ermənistanın saxta təbliğatının tərkib hissəsidir.



“Ərazilərimizi 30 ilə yaxın müddətdə işğal altında saxlayan, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirən, öhdəliklərinə zidd olaraq erməni silahlı qüvvələrini Azərbaycan ərazilərindən hələ də tam olaraq çıxarmayan, Azərbaycanın sülh prosesi təkliflərinə uzun müddət laqeyd yanaşan və bir sıra əsassız iddiaları ilə hazırda prosesə maneçilik törədən Ermənistanın Azərbaycanı nifrət və düşmənçilikdə təqsirləndirməsini qətiyyətlə pisləyirik.

Ermənistan tərəfinin təxribatından sonra Azərbaycanın həyata keçirdiyi təhlükəsizlik və istintaq tədbirləri ilə əlaqədar Laçın sərhəd buraxılış məntəqəsinin fəaliyyətinin müvəqqəti olaraq məhdudlaşdırılmasının “blokada və etnik təmizləmə” kimi təqdim edilməsi Ermənistanın saxta təbliğatının tərkib hissəsidir.

Görünür ki, Ermənistan tərəfi buraxılış məntəqəsi təsis edilən gündən yüzlərlə erməni sakinlərin azərbaycanlı sərhədçilərlə qarşılıqlı anlayış və əməkdaşlıq ruhunda hər iki istiqamətdə keçidini həzm etməyərək, bu kimi təhrikçi addımları təkidlə davam etdirməkdə maraqlıdır.

Eyni qaydada, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərə qarşı “humanitar təhdidlər” olduğu iddialarının heç bir əsası yoxdur. Azərbaycanın zərurət olduğu təqdirdə sakinlərə yardım etmək təkliflərindən özlərini erməni sakinlərin nümayəndələri kimi təqdim edən şəxslər tərəfindən hər vəchlə imtina olunması, erməni tərəfinin bu məsələdən öz dar siyasi məqsədləri üçün istifadə etdiyini göstərir.

Qeyd edilənlərlə yanaşı, erməni sakinlərin “hüquq və təhlükəsizliyi” məsələsindən sui-istifadə cəhdləri qəbuledilməzdir. Azərbaycan tərəfi erməni sakinlərin reinteqrasiyası istiqamətində səy göstərir və Ermənistan tərəfinin müxtəlif bəhanələrlə prosesə müdaxiləsinə, habelə destruktiv şəkildə maneçilik törətməsinə son qoyulması zəruridir”, - deyə məlumatda bildirilib.

# Qazaxıstanlı politoloq: “İrəvanın reallıqla əlaqəsi kəsilib, revanşist şüarlarla sürünür”



***İrəvanın Bakı ilə sülh danışıqlarını əbədi olaraq dayandırılmış vəziyyətdə saxlamaq istəyi gizli deyil. Əgər Paşinyan birdən-birə prosesin ölü nöqtədən getdiyinə ümid etməyə imkan verən bəyanatlar verirsə, onun siyasi dairələrindən biri dərhal şifahi və ya əməli şəkildə geri çəkilir və əldə olunan siyasi dinamika boş yerə gedir, yəni sülh müqaviləsinin imzalanması uzanır və beləliklə, Cənubi Qafqazın siyasi sabitləşməsi qeyri-müəyyən gələcəyə təxirə salınır.***

Nəticədə, irimiqyaslı beynəlxalq, o cümlədən Cənubi Qafqaz regionunun layihələrinin həyata keçirilməsində çətinliklərdən qaçmaq mümkün olmur. Bu, hamı üçün başa düşüləndir və bu gün son dərəcə aktual olan böyük nəqliyyat və logistika layihələrində iştirak edən bizə yaxın və uzaq bütün ölkələr planlar qurmaq və sakit işləmək istəyirlər.

Almaniyanın Federal Prezidenti Frank-Valter Ştaynmayerin Qazaxıstana son səfəri Asiyadan Avropaya Cənub nəqliyyat marşrutunun şaxələndirilməsi, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanması, eləcə də Zəngəzur dəhlizinin işə salınması ilə əlaqəli olan problemlə bağlı idi.

Qazaxıstanlı politoloq Atbek Aytmatov “caliber.az”-a şərhində bu barədə fikirlərini bildirib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.

Aytmatovun fikrincə, İrəvan Qərbin Rusiya Federasiyası ərazisindən keçən marşruta alternativ olaraq Transxəzər dəhlizinin və ona paralel olan digər layihələrin işə salınması planlarının miqyasını və qlobal miqyasını faktiki olaraq düzgün qiymətləndirmir. Və bu kontekstdə Aİ və ABŞ Mərkəzi Asiya və Cənubi Qafqazdakı prosesləri hadisələrin və vəzifələrin vahid məntiqi zənciri kimi nəzərdən keçirirlər ki, onları həll etməklə Avropa və Asiya vahid nəqliyyat, enerji, iqtisadi əlaqə qlobal texnoloji sıçrayışa və qitənin bir çox ölkələrinin inkişafına gətirib çıxara bilər.

Prezident Ştaynmayerin səfəri birbaşa Avropa İttifaqının qarşısına qoyduğu mühüm vəzifələrlə bağlıdır. Əgər görüşün gündəliyini izləsək, görərik ki, birinci şəxslərin söhbətinin mühüm hissəsini Transxəzər beynəlxalq nəqliyyat marşrutunun inkişafı çərçivəsində qarşılıqlı fəaliyyət, neft və qaz, "yaşıl" enerji və sənaye sahələrində əməkdaşlığın genişləndirilməsi müzakirələri təşkil edib. Burada Almaniya Avropanın iqtisadi lokomotivi kimi Qazaxıstan və Azərbaycanı Xəzər dənizinin müxtəlif sahillərində iki mühüm aktor hesab edir ki, Asiyadan Avropaya tarixi yol oradan keçir.

Qərbin Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrini güclü logistika və enerji zəncirinə birləşdirən marşrutların modernləşdirilməsi üçün aydın və dəqiq planları var və onların canlanması real siyasətin iki nöqtəsi ilə əlaqələndirilir: Rusiyanın bir çox bazarlardan geri çəkilməsi, onun geosiyasi zəifləməsi, eləcə də Cənubi Qafqazda vəziyyətin dəyişməsi, daha dəqiq desək, gələcəkdə regionda “Orta Dəhliz” adlanan tranzitlə Asiyadan Avropaya tranzitin gücləndirilməsinə imkan yaradacaq nəqliyyat marşrutlarının açılması. Burada qlobal perspektivlər üzə çıxır və əgər Ermənistan bunu başa düşmürsə, hələ də Azərbaycanla sülh müqaviləsinin imzalanmasını gecikdirirsə, Zəngəzur dəhlizinin işə düşməsinin qarşısını alırsa, onda onun bütün inteqrasiya proseslərindən həmişəlik kənara atılmaq şansı var.

Əslində, İrəvan reallıqla əlaqəni praktiki olaraq itirib, revanşist şüar və ideyalara, iyrənc daxili siyasi gündəmə sürüklənib və sözün əsl mənasında günlərin və saatların sayıldığını tamamilə unudub.

Təbii ki, yad ölkədə separatizmi dəstəkləyən, bütün beynəlxalq qanunları, normaları pozaraq hansısa mistik “Artsax” uğrunda mübarizəyə çağıran Ermənistandan eşidilən şovinist ritorika və destruktiv bəyanatların absurdluğunu başa düşmək Avropa üçün çətindir. Amma avropalılar görürlər ki, Ermənistan açıq şəkildə Qərbin irəli sürdüyü innovasiya siyasətinə qarşı çıxır, əslində, Qərbin Avropa ilə Asiyanı birləşdirməyə, inteqrasiya körpüləri qurmağa çalışarkən daim büdrədiyi ən pis maneəyə çevrilir.

İrəvan anlamaqdan boyun qaçırır ki, bir gün onların ölkəsinə elə həmin daş kimi rəftar ediləcək: o, sadəcə olaraq, danışıqlar apara bilməməsi və həddindən artıq zəhərli olması səbəbindən bütün logistik sxemlərdən kənarlaşdırılacaq, yoldan kənara çəkiləcək.

Beləliklə, prezident Ştaynmayerin Qazaxıstana səfəri İrəvanın düşünməsi və fəaliyyətə başlaması, Azərbaycanla danışıqlar prosesini mümkün qədər tez qurması və bununla da Ermənistanın bu qlobal inteqrasiyada regionlararası layihəyə daxil olması yolunda bütün maneələri və maneələri aradan qaldırması üçün mühüm əlamətdir. Bu, o deməkdir ki, tezliklə sülh müqaviləsi imzalanmalı, Zəngəzur dəhlizi işə salınmalıdır. Şizofreniyasında boğulan, bütün dünyadan təcrid olunmuş “böyük Ermənistan” heç kimə - nə Avropaya, nə də Qərbə lazım deyil”, - deyə A.Aytmatov bildirib.

*Tərcümə - Elçin Bayramlı*




# Nüfuzlu İsrail nəşri: “Qarabağın əsl yerli xalqı Azərbaycan türkləridir”

***Tanınmış israilli siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham populyar “İsrael Behind the News” qəzetində Azərbaycanın ədalətli mövqeyini müdafiə edən məqalə ilə çıxış edib. İsrailli jurnalist yazır ki, Holokostdan sağ çıxmış konqresmen Tom Lantosun adını daşıyan İnsan Haqları Komissiyasının təcavüzkar Ermənistana dəstək verməsi ədalətsizlikdir.***

“Qarabağ həqiqətlərinin keşiyində” sərlövhəli məqalədə ABŞ Konqresinin Tom Lantos adına İnsan Haqları Komissiyasının cari il iyunun 21-də Qarabağ ermənilərinin təhlükəsizliyinin təmin edilməsi məsələsi ilə bağlı keçirdiyi dinləmələrdən bəhs olunub: “Dağlıq Qarabağ xalqının qorunması”ndan danışan Komissiya unutmamalıdır ki, “Dağlıq” (Naqornı) bölgənin adına sovet idarəçiləri tərəfindən əlavə edilmiş rus sözüdür, “Qarabağ” isə mənası tam aydın olan türk kəlməsidir. Bu, o deməkdir ki, Qarabağın əsl yerli xalqı Azərbaycan türkləridir və onların bu torpaqlar üzərində hüquqları BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə yekdilliklə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələri ilə tanınıb. Bu isə öz növbəsində o anlama gəlir ki, Birləşmiş Ştatlar da beynəlxalq hüququn normalarına uyğun olaraq müharibə şəraitində olan Qarabağ bölgəsinə Azərbaycanın danılmaz hüququnu tanıyır. Faktiki olaraq Ermənistan beynəlxalq birliyin tələblərinə zidd olaraq Azərbaycanın adıçəkilən bölgəsini 30 il qanunsuz olaraq işğal altında saxlayıb və ərazinin kənardan gələn erməni köçkünlərin hesabına qeyri-qanuni məskunlaşdırılması ilə məşğul olub. Burada ermənilər sözün əsl mənasında keçmiş Azərbaycan şəhərlərinin və qəsəbələrinin xarabalıqları arasında yaşayıblar”.

### Azərbaycanda multikulturalizm siyasəti aparılır

Diqqətə çatdırılıb ki, Azərbaycan Laçın dəhlizi boyunca sərhəd-buraxılış məntəqəsi yaratmaqla öz suveren ərazilərinin qanunsuz müdaxilələrdən qorunmasını təmin etmək, habelə sərhəd-keçid məntəqələrində nəzarəti saxlamaq kimi suveren və toxunulmaz hüququnu reallaşdırıb. Ermənistanın Azərbaycana bu qədər müsibətlər gətirməsinə baxmayaraq, Azərbaycan dövləti Qarabağda yaşayan etnik ermənilərlə bərabər dinc yanaşı yaşamağa və onlara Azərbaycan vətəndaşları ilə bərabər hüquqlar verməyə hazır olduğunu dəfələrlə bəyan edib. Habelə ermənilər müharibənin getdiyi Qarabağ bölgəsində sistemli şəkildə məscidləri dağıdarkən, Bakının mərkəzində erməni kilsəsi hələ də toxunulmaz olaraq qalır. Üstəlik, Qarabağ bərpa olunduqca azərbaycanlılar regionda təkcə məscidləri deyil, kilsələri də bərpa etməyi planlaşdırırlar. Bu, onunla bağlıdır ki, Azərbaycanda multikulturalizm siyasəti aparılır və sözügedən siyasətdə hər bir inanca, dinə etiqad edənlər bərabər hörmət və dəstək alırlar. Belə ki, Azərbaycanda Pasxa, Novruz və Pesax bayramlarını hamının birlikdə qeyd etməsi normal haldır.

Bütün qeyd olunanların fonunda sözügedən dinləmələri Tom Lantos adına İnsan Haqları Komissiyası tərəfindən ədalətin və həqiqətin təhrif edilməsinə dəstək kimi dəyərləndirən və bundan ciddi şəkildə narahatlıq keçirdiyini dilə gətirən israilli politoloq Komissiyanın heç bir halda haqq qazandırılması mümkün olmayan bu addımını qeyd-şərtsiz pisləyib.

***Mətləb***

# "Azərbaycan Ordusu öz qüdrətini bütün dünyaya nümayiş etdirdi"



***SİA Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyevlə müsahibəni təqdim edir:***

**– Milli Ordumuzun yaranma tarixi, Azərbaycan əsgərinin şanlı döyüş ənənələri haqqında fikirlərinizi bildirərdiniz.**

- Məlum olduğu kimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1998-ci ildə imzaladığı müvafiq Fərmanla Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk əlahiddə Azərbaycan korpusunun yaradıldığı gün – 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. Bu Fərman Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində tarixi bir addım oldu. Ulu Öndər Heydər Əliyev görkəmli dövlət xadimi, dünya miqyaslı böyük siyasətçi, həm də peşəkar hərbçi idi. 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbər seçilməsi ilə azərbaycanlıların hərbi məktəblərə daxil olmalarının təmin edilməsi, zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi, hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması ordu quruculuğu sahəsində milli maraqlarımızın bünövrəsini təşkil edirdi. Xalqın təkidli çağırışlarına səs verərək 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul etdi və genişmiqyaslı islahatlara start verdi.

**"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır"**, – deyən Ulu Öndər ilk növbədə ölkədə vətəndaş həmrəyliyi və sabitliyin bərqərar olunmasına nail oldu. Silahlı qüvvələrin qanunvericilik bazası yaradıldı, dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Müəyyən qrupların və siyasi dairələrin şəxsi maraqlarına xidmət edən silahlı dəstələr buraxıldı, ayrı-ayrı qoşun növlərinin, hərbi hissələrin formalaşdırılması prosesi qısa müddət ərzində tam başa çatdırıldı, eyni zamanda orduya çağırış və fərarilik halları ilə bağlı problemlər həll edildi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı və maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı.

Ümummilli Lider Heydər Əliyevin ideyalarının layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirərək müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizamlı və yüksək döyüş ruhu ilə seçilən Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasına nail oldu. Dünya miqyasında ən güclü ordular sırasında yer alan Silahlı Qüvvələrimiz işğal altında olan torpaqlarımızın azadlığı uğrunda 44 günlük Vətən müharibəsində mükəmməl döyüş taktikası ilə yeni nəsil müharibə nümunəsi göstərdi. Əks-hücum əməliyyatları ilə torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusu öz qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi. Vətən müharibəsindən əvvəlki illərdə qazanılan qələbələrimiz deyərdim ki, bizi böyük zəfərə doğru aparan inamlı addımlar idi. 2016-cı ilin aprel döyüşləri zamanı düşmənə dağıdıcı zərbələr endirildi. Nəticədə Ermənistan tərəfi atəşkəs rejiminin bərpa olunması üçün müraciətlər etmək məcburiyyətində qaldı. Sonra, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası istiqamətində həyata keçirilmiş möhtəşəm Günnüt əməliyyatını qeyd etmək istərdim. Eləcə də Azərbaycan sərhədçilərinin 2019-cu ildə Qazax rayonunda əldə etdikləri ciddi uğurlar. Bütün bunlar Silahlı Qüvvələrimizin real qüdrətinin mühüm nümayişi olmuşdur. Nəhayət, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 2020-ci ilin 8 noyabrında Şuşa şəhəri düşmən tapdağından azad edildi və bu tarixi qələbə ilə böyük zəfər salnaməmiz yazıldı. Bütün bu qeyd olunanlar Azərbaycan Silahlı Qüvvələrinin şanlı döyüş ənənəsinin əsasını təşkil edir.

**– Bü gün Azərbaycan ordusu Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində dünyanın ən güclü orduları siyahısındadır. Daha güclü olmamız üçün hansı addımlar atılmalıdır?**

- Silahlı Qüvvələrdə çox ciddi və əhəmiyyətli işlər görülüb və bundan sonra da ordu quruculuğu sahəsində müvafiq tədbirlərin davam etdirilməsi nəzərdə tutulur. İki gün əvvəl – iyunun 23-də cənab Prezident Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı vurğuladı ki: "Bu ilin dövlət büdcəsi müstəqil Azərbaycan tarixində rekord büdcədir. Buna baxmayaraq, biz əlavə vəsaiti əldə edən kimi büdcənin artırılmasına böyük məbləğdə vəsait ayırdıq. Burada iki əsas istiqamət müəyyən edilmişdir – bizim üçün bu gün prioritet məsələlərdən biri ordu quruculuğu, digəri isə Qarabağ və Şərqi Zəngəzurun bərpa olunmasıdır".

Ali Baş Komandanın tələb və tövsiyələrinə uyğun olaraq bu gün qarşımızda Silahlı Qüvvələrin, qoşun növlərinin, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin gücləndirilməsi, Ordu ilə digər hərbi qurumlar arasında qarşılıqlı əlaqələrin daha da təkmilləşdirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitlərinin yaxşılaşdırılması kimi tapşırıqlar durur. Cənab Ali Baş Komandan İlham Əliyev bu məsələlərə xüsusi diqqət göstərir və öz çıxışlarında Azərbaycan Ordusunun bundan sonra da gücləndiriləcəyini, dünyanın ən güclü orduları sırasında yerinin möhkəmləndiriləcəyini vurğulayır. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi-strateji əməkdaşlığın perspektivləri baxımından müstəsna əhəmiyyət kəsb edən Şuşa Bəyannaməsi müdafiə qabiliyyətinin və təhlükəsizliyin möhkəmləndirilməsi, birgə təlimlərin keçirilməsi və şəxsi heyət mübadiləsi, aidiyyəti strukturların əlaqəli fəaliyyətinin təmin olunması, müştərək layihələrin reallaşdırılması və müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsi sahəsində ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə mühüm töhfələr verəcək tarixi bir sənəddir. Bildiyimiz kimi, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə mütəmadi qaydada genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilir. Bu baxımdan, iki qardaş ölkənin Silahlı Qüvvələri daim dünyanın diqqət mərkəzində dayanır, ölkələrimizin hərbi gücünü, qüdrətini daha geniş sferada nümayiş etdirir. Təbii ki, yeni standartlar da qəbul edilir və icra olunur. Əbəs deyil ki, Prezident İlham Əliyev cənabları komando birliklərinin hazırlanması istiqamətində öz mühüm tapşırıq və tövsiyələrini verdi və artıq Azərbaycanın ərazilərini istənilən təhlükədən müdafiə edən çox güclü, peşəkar və kifayət qədər potensialı olan komando birlikləri mövcuddur. Həmin perspektivlər isə əlbəttə ki, inkişaf etdirilir və hərbi modelin təkmilləşdirilməsi amili də daim nəzərdə tutulur.

**– Son zamanlar erməni silahlı birləşməsinin təxribatlarının artmasının səbəbi nədir, bunu nə ilə izah edərdiniz? Bütün bunların fonunda Azərbaycan ordusu anti – terror əməliyyatlarını intensivləşdirə bilərmi?**

- Cənab Ali Baş Komandan İlham Əliyev qarşıda duran məsələlər barədə fikirlərini açıqlayarkən vurğulayır ki, Ermənistan tərəfi yeni reallıqlarla barışmalı və bizimlə hesablaşmalıdır. Sülh və əmin-amanlığı bərpa etməklə regionun inkişafından Ermənistan da bəhrələnə bilər. Məlumdur ki, bu gün Ermənistan yalnız iqtisadi, sosial deyil, həm də hərbi-siyasi böhran içindədir və ölkədə hərc-mərclik davam edir. Eləcə də keçmiş hakimiyyətdən olan revanşistlərin yenidən iqtidara can atmaları təxribatları artıran amillərdəndir. Ermənistan üzərinə düşən öhdəlikləri, o cümlədən 10 noyabr Bəyanatın müddəalarını icra etməzsə, onlar üçün əvvəlkindən də böyük problemlərin yaranmayacağına kimsə zəmanət verə bilməz. Onu da deyim ki, artıq dünya birliyi də Azərbaycanın qələbəsini regionda sülhün möhkəmləndirilməsi istiqamətində önəmli töhfə kimi qiymətləndirir. Hesab edirəm ki, Ermənistan bu cəhdlərini nə qədər çox davam etdirərsə, hazırda düşdüyü acınacaqlı vəziyyətini daha da dərinləşdirəcək.

Bir daha əminliklə qeyd edim ki, Azərbaycan Silahlı Qüvvələri xalqımızın və dövlətimizin etimadını şərəflə doğrultmağa və Müzəffər Sərkərdəmiz, cənab Ali Baş Komandanımız İlham Əliyevin növbəti əmr və tapşırıqlarını yerinə yetirməyə hər an hazırdır.

**– Cənab general, Ermənistan Siyasi hakimiyyətinin ikili oyunu və sülh razılaşmasına mane olan tərəflər nədir?Azərbaycan Ermənistan sərhədlərinin delmitasiya və demarkasiya prosesində hansı irəliləyişlər var?**

- Məlumdur ki, Ermənistan keçən ilin oktyabr ayında Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdı. Ali Baş Komandanın bildirdiyi kimi, Azərbaycan tərəfinin sülh üçün mühüm şərti Zəngəzur dəhlizinin açılması və Ermənistan ordusunun silahlı birləşmələrinin Qarabağ bölgəsindən çıxarılmasıdır. Bundan sonra beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq hazırlanmış və ölkəmizin ərazi bütövlüyünün, müharibədən sonrakı reallıqların əks olunduğu sənədi Ermənistan imzalamalıdır. Belə olan halda Cənubi Qafqazda uzunmüddətli sülh yarana bilər.

Biz şahidi olduq ki, 30 ilə yaxın dövrdə Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələri və digər nüfuzlu beynəlxalq təşkilatların qərarları icra olunmadı. 44 günlük Vətən müharibəsində Azərbaycanın Müzəffər Ordusu parlaq qələbə ilə ədaləti bərpa etdi. Təəssüf ki, dünyada ikili standartlar reallığı bu gün də qalmaqdadır. Bir sıra siyasi dairələrin Ermənistanın təxribatçı əməllərinə göz yummaları, hətta ona dəstək verməleri isə onların özlərinin qəbul etdikləri hüquq prinsiplərini pozur.

Azərbaycan müstəqil dövlətdir və onun maraqlarına zidd atılan istənilən addımın qarşısı qətiyyətlə alınır və bundan sonra da alınacaq. Bildiyiniz kimi, Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə yaradılmış Dövlət Komissiyası fəaliyyət göstərir və işçi qrupların görüşləri keçirilir. Növbəti belə görüşün keçirilməsi nəzərdə tutulur.

**- Sonda cənab general Silahlı Qüvvələr günü ilə bağlı təbriklərinizi eşitmək istərdik.**

- Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibəti ilə Silahlı Qüvvələrimizin şəxsi heyətini səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətlərində müvəffəqiyyətlər arzulayıram. Doğma Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, ailələrinə və yaxınlarına səbir, qazilərimizə şəfa diləyirəm.



# Azad və abad Laçına əbədi qayıdış!

***2020**-ci ildə 44 günlük müharibədə əldə olunan şanlı qələbədən sonra növbəti mərhələ Qarabağın dirçəldilməsi və bölgədə tikinti-quruculuq işlərinin aparılmasıdır. Dövlət tərəfindən "Böyük Qayıdış" planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilib. Həmin ərazilərdə yeni yaşayış məntəqələrinin salınması, infrastrukturun bərpası, yolların çəkilişi, məktəb, xəst¬əxana tikintisi sürətlə davam edir, artıq sakinlər doğma yurd-yuvalarına köçürülür. Artıq Laçına da köç başlayıb. Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib.*

## BİRİNCİ MƏRHƏLƏ - 20 AİLƏNİN YENİDƏN QURULAN LAÇIN ŞƏHƏRİNƏ QAYIDIŞI

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı başlanıb. Belə ki, birinci mərhələdə şəhərə 20 ailə, yəni 97 nəfər köçürülüb. Laçına ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. İlkin mərhələdə köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda ən ağır şəraitdə yaşayanlar arasından seçilib. Onlar Laçın şəhərində işğaldan əvvəl yaşadıqları və işğala son qoyulduqdan sonra dövlətimizin başısının göstərişi əsasında aparılan təmir-bərpa işləri nəticəsində tamilə yenilənmiş və zəruri yaşayış şəraitinin yaradıldığı evlərdə məskunlaşacaqlar.

Mayın 28-də - Müstəqillik Günündə Azərbaycan Prezidenti İlham Əliyevin Laçına səfəri, orada doğma yurd-yuvasına qayıdan sakinlərlə görüşü, sadə insanların yanında olması bir daha onun Azərbaycanın güclü lideri olmasının sübutudur. Bu baxımdan, dövlətimizin başçısının rayonlarda çoxsaylı təməlqoyma mərasimləri və açılışlarda iştirakı, xüsusilə ilk 20 ailənin Laçında məskunlaşması müstəqillik günündə onun xalqımıza hədiyyəsidir. Bu gün Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər möhkəm olmasını bir daha göstərir: "Biz Laçında Prezident İlham Əliyevin açılışını etdiyi məkanları gördükcə əslində, 7-8 aya nə qədər böyük işlərin görüldüyünü anladıq. Göründüyü kimi, 7-8 ay ərzində Laçının böyük hissəsi tamamilə yenidən qurulub. İlk 20 ailə artıq Laçında yerləşib və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcəklər. Prezident çıxışında bildirdi ki, birinci mərhələdə Laçında 4 minə yaxın insan məskunlaşacaq. Artıq Laçın şəhərinin Baş planı hazırlanıb. Bütövlükdə Laçında 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun. Tibb məntəqəsi hazırlanır. Məktəb yeni dərs ili üçün hazır olacaq. Onlarla müəssisənin yaradılması nəzərdə tutulur. Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq.

Prezident İlham Əliyev laçınlılarla görüşündə onu da bildirdi ki, mənfur düşmən 30 il bizim şəhər və kəndlərimizi dağıdıb, viran qoyub. Azərbaycan isə cəmi iki il yarım ərzində artıq keçmiş köçkünləri öz doğma yurdlarına qaytarıb. Cari ilin sentyabr ayına qədər Zabux kəndi də tamamilə inşa edilib zabuxluların sərəncamına veriləcək. Çünki Laçının işğal altına düşməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılmışdır. Laçın rayonu 1992-ci ilin may ayında, Şuşadan 10 gün sonra işğal olunmuşdu".

Bu ərazilərdə sözsüz ki, vətəndaşlarımızın təhlükəsizliyi məsələsi də düşünülüb. Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin qurulması Laçında yaşayan əhalinin təhlükəsizliyi baxımdan olduqca önəmlidir. Prezident bu barədə dedi ki, sərhəd-buraxılış məntəqəsi son məntəqə idi ki, Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə və əks istiqamətə oradan nəzarətsiz hərəkət var idi. Hərəkət indi də var, amma tam nəzarət altındadır: "Həmçinin Prezident İlham Əliyev Laçın şəhərində Heydər Əliyev, Zəfər və 28 May küçələrinin həmçinin Xosrov bəy Sultanov, Zəngəzur, Bir Dekabr küçələrində lövhələrin açılış mərasimində iştirak etdi, dağıntıların nümayiş etdiriləcəyi memorial parkdan ibarət İşğal və Zəfər Muzeyinin təməlini qoydu. Laçında İşğal və Zəfər Muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətinin və ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, Azərbaycanın haqq səsini bütün dünyaya çatdıracaqdır. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə yeni abhava var. Mənfur düşmənin əsarətindən xilas olan bütün yurd yerlərimizə yenidən həyat verilir. Düşmən üzərindəki tarixi Qələbəmizdən sonra ölkə başçısı dəfələrlə işğaldan azad edilmiş ərazilərə səfərlər edərək bildirir ki, Qarabağda bütün infrastruktur bərpa olunacaq.



*PREZİDENT İLHAM ƏLİYEV: "Demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu"*







## "DÜNYA MİQYASINDA NADİR ÖLKƏLƏRDƏNİK Kİ, İQTİSADİ CƏHƏTDƏN TAM MÜSTƏQİLİK"

Sözsüz ki, Azərbaycanın inkişafı və bugünkü səviyyəyə çatmasının kökündə Ulu öndər Heydər Əliyevin siyasəti, vaxtında verdiyi qərarlar dayanır. Bu barədə çıxışında ölkə başçısı bildirdi ki, Ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan ayağa qalxa bildi, inkişaf yoluna qədəm qoya bildi, vətəndaş müharibəsinə son qoyuldu.

Ardı Səh. 6

# Azad və abad Laçına əbədi qayıdış!





Əvvəli-Səh-5

Dövlət başçısı çıxışı zamanı onu da vurğuladı ki, danışıqlar aparılan müddətdə iqtisadiyyatımızı gücləndirdik və bu gün heç kimdən asılı deyilik: "Dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik. Siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi sayılır. Güclü ordu qurmuşuq. Bu ordu düşməni 44 gün ərzində darmadağın edib, onları diz çökdürüb və torpaqlarımızdan qovub".

Azçərbaycan Prezidentinin qeyd etdiyi kimi: "Bu gün nə müstəqillikdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır. Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq".

## "BİZ ÖZ DOĞMA TORPAQLARIMIZI İŞĞALÇILARDAN AZAD EDƏNDƏN SONRA MƏN DEMİŞDİM Kİ, QARABAĞI VƏ ŞƏRQİ ZƏNGƏZURU CƏNNƏTƏ ÇEVİRƏCƏYİK"

Dövlətimizin başçısı görüş zamanı bildirdi ki, biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun: "Mənfur düşmən 30 il bizim şəhər və kəndlərimizi dağıdıb, viran qoyub, özü də yaşamayıb, bizə də yaşamağa imkan verməyib. Biz isə cəmi iki il yarım ərzində artıq keçmiş köçkünlərin birinci qrupunu Ağalı kəndinə, Talış kəndinə yerləşdirmişik və üçüncü yaşayış yeri, hara ki, keçmiş köçkünlər qayıdır, Laçın şəhəri olub. Biz bu ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına verəcəyik. Bildiyiniz kimi, Zabux və Sus kəndləri də Laçın şəhəri ilə eyni gündə işğalçılardan azad edilmişdir və orada da fəal iş aparılır. Beləliklə, həm Laçın rayonunda, həm bütün başqa rayonlarda biz ildən-ilə daha da böyük işlər görməklə öz vətəndaşlarımızı normal şəraitlə təmin edəcəyik".

"Mən hər zaman deyirdim ki, ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Bu gün müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində biz buna nail olmuşuq. Biz düşməni döyüş meydanında məğlub etmişik. Danışıqlar yolu ilə olsaydı, daha yaxşı olardı, ancaq mən deyirdim ki, biz hər varianta hazır olmalıyıq və azadlıq gününü hər birimiz yaxınlaşdırmalıyıq və yaxınlaşdırdıq",- deyən dövlətimizin başçısı onu da bildirib ki, danışıqlar aparılan müddətdə iqtisadiyyatımızı gücləndirdik və bu gün heç kimdən asılı deyilik: "Dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik. Siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Deyirəm, ən azı regional, amma, eyni zamanda, bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi sayılır".

"Laçın şəhərinin bugünkü siması, - halbuki qeyd edirəm, bu, sadəcə olaraq birinci mərhələdir, - göstərir ki, biz qurub-yaradan xalqıq və göstərir ki, bu torpaq bizimdir". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə söyləyib.

Bəli, bu gün Prezident İlham Əliyevin siyasəti nəticəsində azad Laçın yeni inkişaf mərhələsinə qədəm qoyur, sakinlərini öz ata-baba yurdlarında xoş və firavan həyat gözləyir. Laçın ərazisində tikilməkdə olan beynəlxalq hava limanı xüsusilə böyük əhəmiyyət daşıyır. Cənab Prezident, həmçinin laçınlılara xoş müjdə də verdi. Belə ki, minlərlə insan bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq. Bu, onu göstərir ki, laçınlıların öz yurdlarında xoşbəxt həyatı o qədər də uzaqda deyil.

Ən əsası isə yenidənqurma və bərpa işlərini Azərbaycan özü təkbaşına, heç bir beynəlxalq təşkilatın və ya dövlətin köməyi olmadan yerinə yetirir. Heç bir maliyyə yardımı almadan, daxili imkanları hesabına, öz gücü ilə hər şeyi edir.

Onun sözlərinə görə, həyata keçirilən yenidənqurma və bərpa işlərini Azərbaycan özü təkbaşına yerinə yetirir. Heç bir maliyyə yardımı almadan, daxili imkanları hesabına, öz gücü ilə hər şeyi edir.

Bütün bu görülən işlər onu deməyə əsas verir ki, xalqımızın rifahı daha da yaxşılaşacaq, ölkəmizin qüdrəti yüksələrək Qarabağımız daha yenidən dirçələcək! .Və ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət bir daha onu göstərir ki, «2023-cü il Heydər Əliyev ili» də Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Növbəti il üçün əsas maliyyə planı xalqımızın rifahının daha da yaxşılaşmasını və ölkəmizin qüdrətinin yüksəlməsini, Qarabağımızın yenidən dirçələcəyini və iqtisadi inkişafın davamlılığını təmin edəcək.

Bir sözlə, qayıdış "Böyük Qayıdış" olmaqla təkcə azərbaycanlıların Qarabağa deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlara qayıdışını əhatə edəcək. Bu uğurlar Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin mükəmməlliyinin və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin mənafeyini əks etdirdiyini, Azərbaycanın dünya miqyasında nüfuzunun artmasını, həm də ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrildiyini bir daha göstərir. Sözügedən strategiya yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək. Dövlət başçımızın dediyi kimi, biz işğaldan azad olan torpaqları cənnət-məkana çevirəcəyik!



**RƏFİQƏ KAMALQIZI**

# Zəngəzurdan Türk dünyasına




***9 noyabr 2020-ci ildə üç ölkə - Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyannamənin bir bəndi Zəngəzur dəhlizi ilə bağlıdır. Maneəsiz keçidin təmin olunacağı bu dəhlizdən həm Azərbaycan və Ermənistan, həm də Türkiyə, Avropa, Rusiya və İranın faydalanacağı gözlənilir. Burada siyasətdən çox iqtisadi maraqlar var. Zəngəzur dəhlizi ilə Rusiya Yaxın Şərqə və Avropaya, Ermənistan Rusiya və İrana, o cümlədən Avropaya, İran isə bu marşrutla Avropaya, Rusiyaya çıxış əldə etmiş olacaq. Bu marşrutun əsas müəllifləri Azərbaycanla Türkiyə isə Şərqdən Qərbə, Şimaldan Cənuba uzanan dəhlizin səmərəliliyini daha üstün formada qəbul edir. Məsələ regionda sabitliyin bərqərar olunmasıdır. Azərbaycan hərbi eskalasiyaya deyil, iqtisadi inkişafa, beynəlxalq əlaqələrə, sülh və sabitliyə çatmaq üçün bütün imkanlardan istifadə edir. Təəssüf ki, hər kəs üçün arzuolunan bu missiyaya qarşı çıxanlar da var.***





“Horadizdən Ordubada 166 km yeni dəmir yolu çəkiləcək”. Bunu Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu deyib. Onun sözlərinə görə, Azərbaycanın Zəngəzur dəhlizinin Ermənistana məxsus hissəsinin 43 kilometrlik hissəsi ilə bağlı Azərbaycanla Rusiya arasında danışıqlar aparılacaq. Türkiyəli nazir Türkiyə ilə Azərbaycan arasında yeni nəqliyyat əlaqəsini təmin edəcək Qars-Naxçıvan dəmir yolundan da danışıb. “Ordubaddan Naxçıvanın şimalında yerləşən Vəlidağ stansiyasına qədər olan 158 kilometrlik xətt əsaslı təmir olunacaq. Bundan əlavə, yol Vəlidağdan Ermənistanla sərhədə qədər 14 kilometr uzadılacaq”, - deyə türkiyəli nazir bildirib.

Xatırladaq ki, bu yaxınlarda Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov “TRT Haber” telekanalına müsahibəsində “Yaxın vaxtlarda Ermənistan ərazisindən keçən Zəngəzur dəhlizinin açılması baş verəcək” bildirmişdi. “Zəngəzur dəhlizi Türkiyə ilə Azərbaycanı birləşdirəcək. Bu dəhlizin açılması istiqamətində işlər sürətlə gedir və başa çatmaq üzrədir”, - deyə Məmmədov fəxrlə bildirib. Onun sözlərinə görə, Zəngəzur bölgəsindən keçən nəqliyyat dəhlizi Türkiyə ilə Azərbaycan arasındakı məsafəni 38 kilometrə qədər azaldacaq. Diplomat qeyd edib ki, bu, Türkiyənin Asiya ilə ticarət əlaqələri üçün də vacibdir: ”Türkiyə Şərqlə Qərb arasında əlaqə yaradacaq”.

Məmmədov onu da bildirib ki, bu layihə Ermənistan üçün də önəmlidir. Onun sözlərinə görə, bu, Ermənistanın təhlükəsizliyinin təmin edilməsi məsələlərinə aiddir. Yəni, Ankara və Bakı artıq özlərini nəinki öz maraqlarını həyata keçirməyə, hətta Ermənistan üçün faydalı olduğunu bəyan etməyə haqlı hesab edirlər.

Erməni ekspertlər məsələyə bir az başqa tərəfdən yanaşaraq izah etməyə çalışırlar ki, əslində bütün bunlar yalnız Azərbaycanın xeyrinədir və bu, Ermənistandan Naxçıvana dəhliz verməsi tələbidir. Ermənistan tərəfi isə bütün bu



təzyiqlərə tab gətirmək gücündə deyil. Rusiya nümayəndələri də dəfələrlə bəyan ediblər ki, regionda nəqliyyat kommunikasiyalarının bloklanmasından danışarkən, heç vaxt bu anlayışlara ekstraterritorial məna qoymayıb. Rusiyanın iradlarına isə sadəcə məhəl qoyulmur. Həm də başı Ukrayna ilə müharibəyə qarışıb. Rusiya orada artıq 220 mindən çox əsgər itirib. Onun Ukraynada məhv edilən hərbi texnikası ilə bütün Cənubi Qafqazı ələ keçirmək mümkün idi. Rusiya artıq uğursuzluqlarını etiraf edir.

Ukrayna Müdafiə Nazirliyi Zaporojye vilayətinin Pyatixatki qəsəbəsinin azad edilməsi barədə məlumatı təsdiqləyib. Ukrayna müdafiə nazirinin müavini Anna Malyar bildirib ki, iki həftə ərzində Berdyansk və Melitopol istiqa mətlərində keçirilən hücum əməliyyatları zamanı Tavriya qoşun qruplaşmasının bölmələri səkkiz yaşayış məntəqəsini - Novodarovka, Levadnoe, Storozhevoe, Makarovka, Blaqodatnoye, Lobkovoe, Neskuchnoye, Pyatikhatkini azad edib. “Ümumiyyətlə, Taurida istiqamətindəki bölmələr düşmənin 7 km-ə qədər dərinliyinə doğru irəliləyib. Cənubda boşaldılan ərazi 113 kvadrat kilometrdir”, məlumatda deyilir. Bu isə Rusiya üçün hər şeyin dağılmasının başlanğıcıdır.

20 iyun tarixində Ermənistanın Baş naziri Nikol Paşinyanın Ermənistan Parlamentində çıxışı zamanı 44 günlük müharibə zamanı və ümumilikdə, işğal dövründə aparılmış bir sıra danışıqları təhrif etməklə yanaşı, bir daha göstərib ki, Ermənistan çağırışlara baxmayaraq, Azərbaycan ərazilərini danışıqlar yolu ilə işğaldan azad etməkdən imtina edib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ermənistanın Baş naziri Nikol Paşinyanın 20 iyun tarixində Parlamentdə çıxışı zamanı səsləndirdiyi iddialarla bağlı şərhində bildirilib.

“Ermənistan baş naziri müharibə zamanı hər bir danışıqdan və humanitar atəşkəsdən dərhal sonra müharibə zonasından kənar mülki əhalinin sıx yaşadığı Azərbaycan şəhərlərini raket atəşinə tutmasını və mülki əhalini qətlə yetirməsini danması Ermənistan tərəfinin faktları necə təhrif etdiyini bir daha nümayiş etdirir.

Azərbaycanın guya 2011-ci ildən silahlanmanı və təxribatları artırmaqla vəziyyəti gərginləşdirdiyi barədə iddialara gəldikdə qeyd edək ki, Azərbaycan əraziləri işğal olunan andan etibarən BMT Təhlükəsizlik Şurasının və bir sıra digər beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında danışıqlar yolu ilə ərazilərinin geri qaytarılmasına səy göstərib. Bütün bunlara baxmayaraq, Paşinyan tərəfindən şəxsən 2018-2019-cu illərdə nümayiş etdirilən təhrikçi ritorika da daxil olmaqla, uzun illər ərzində Ermənistan tərəfindən törədilən təcavüz aktının və təxribatların sülhə töhfə vermədiyi və 2020-ci ildə müharibə ilə nəticələndiyi hər kəsə məlumdur. Ermənistan tərəfinin tarixi səhvlərindən dərs çıxarması və post-münaqişə dövründə sülh prosesinin uğurla nəticələnməsi işinə maneçilik törətmək səylərindən əl çəkməsi zəruridir”, – qeyd olunub.

Zəngəzur dəçhlizinə gəldikdə isə, Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərindən ibarət üçtərəfli işçi qrupu formatında görüş keçirilib və nəticədə hərtərəfli sənəd formalaşdırılıb. Məsələyə diqqət çəkən Rusiya baş nazirinin müavini Aleksey Overçuk bildirib ki, regionda nəqliyyat əlaqələrinin açılması Arazdəyən (Yerasx)-Culfa-Meğri-Horadiz marşrutu ilə gedəcək dəmir yolunun bərpası ilə başlayacaq və tərəflərin suverenliyinə hörmət əsasında əsas yanaşmaları müəyyənləşdirir: “Tərəflərdən heç biri şübhə etmir ki, bu yolun ayrı-ayrı hissələri onların ərazisində yerləşdiyi ölkənin yurisdiksiyasında olacaq. Ən böyük problem inamdır. Məhz buna görədir ki, danışıqlar ləng gedir. Nəhayət, yol boyu sadə insanlar - azərbaycanlılar, ermənilər, başqa ölkələrin vətəndaşları gedəcək. Onlar sərhədi keçərkən bir-biri ilə necə qarşılıqlı əlaqədə olacaqlar, başqa dövlətin ərazisindən keçərkən onların təhlükəsizliyi necə təmin olunacaq? Bu gün bizim birlikdə cavab vermək istədiyimiz əsas sual budur ki, başqa ölkənin ərazisində bu insanların başına pis heç nə gəlməyəcəyinə əmin olaq. Və təbii ki, biz hamımız indi sərhəddə baş verənlərdən təsirlənirik”.

Overçuk əlavə edib ki, buna görə də, tərəflər fasilələr verir, ekspertləri cəlb edir, istənilən təklif və qərarları hərtərəfli və yoxlanılmış təhlilə məruz qoyurlar ki, ümid edirik ki, münasibətlərin yeni sülh mərhələsinə qədəm qoyan ölkələr arasında hər şey həqiqətən də olduğu kimi olsun: “Sənəd layihəsi bizim səviyyədə formalaşıb və demək olar ki, tamamilə razılaşdırılıb, baxmayaraq ki, əsas məsələ: sadə azərbaycanlıların və ermənilərin sərhədi keçərkən bir-biri ilə necə qarşılıqlı əlaqədə olması hələ də üzərində işləmək lazımdır. Əlbəttə ki, bu gün informasiya texnologiyalarına arxalanmaqla çox şey etmək olar və belə həllər mövcuddur, lakin bunlar, bəlkə də, dünyanın başqa yerlərində aşkar və uğurla tətbiq olunur, onları təhlil etməyə başlayanda, bizim vəziyyətimizə tam uyğun gəlmir”.

Ermənistan üçün bu dəmir yolunun açılması bu ölkə üçün əsas əhəmiyyət kəsb edir. Ermənistan iqtisadiyyatı çöküb, amma yolun açılması ilə inkişafa doğru gedə bilər. Ermənistan rəhbərliyi ən qısa zamanda özünü blokadadan çıxarmağa çalışır. Azərbaycan rəhbərliyinin də simmetrik qayğısı var ki, o da ölkənin qərb rayonları ilə Naxçıvan arasında ən qısa zamanda birbaşa və rahat nəqliyyat əlaqəsi yaratmağa çalışır. Bundan əlavə, dəmir yolunun İran və Türkiyəyə daha da uzanacağı göz qabağındadır ki, bu da onu Avrasiyanın ən mühüm nəqliyyat marşrutlarından birinə çevirəcək. Amma təbii ki, sənədin imzalanmasının sürəti naminə heç kim bu yolda hərəkət edən insanların və malların təhlükəsizliyini ikinci yerə qoymayacaq. Bu, kilidin açılmasının nə vaxt baş verəcəyi sualına hələ cavab verməyən çox vacib bir məqamdır.

Qərbin nəqliyyat kommunikasiyalarının açılması prosesinə müdaxilə cəhdlərini də qeyd etmək lazımdır. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri ilə apardığı danışıqlardan sonra dərc etdiyi bəyanatlarından aydın görünür ki, nəqliyyat blokunun açılması prioritet olaraq göstərilir. Eyni zamanda, bu məsələdə tərəflərin əldə etdiyi irəliləyiş qeyd olunur. Anladığımız kimi, bu irəliləyiş Rusiyanın iştirakı ilə üçtərəfli platformada əldə olunub, baxmayaraq ki, avropalıların bunu qeyd etməyəcəyi aydındır. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixli 9-cu bəndlə bağlı bəyanatına uyğun olaraq yaradılmış platforma tərəqqinin əldə olunduğu yerdir. Baş nazirin müavinlərinin üçtərəfli işçi qrupunun formatından uzaqlaşmasının hamı üçün açıq-aşkar mənfi təsirləri olacağı da bəllidir. Amma, Zəngəzur dəhlizinin açılmasına şübhə edənlərin sayının hər an azaldığından da xəbərimiz var.

***V.VƏLİYEV***

# Vətənə daş, torpağa qardaş, ölkəyə vətəndaş olduq

***Daş, tarixdir, əsrlərin o başından bu başınadək ötən tarix. Biz olmasaydıq, o tarixi kim yaşadardı? Biz Vətənə daş olduq. Hər dağında, hər qayasında, çayında, hər elində... Daş olduqca da daşlaşdıq. Tariximizi yazdıq. Hünər, qəhrəmanlıq səhifəsini öz əllərimizlə yazıb bu Vətənin daşına çevrildik. Qoparmaq istədilər, qopmadıq. Daşımaq istədilər, yerimizdən qaldıra bilmədilər. Əlləri külünglə gəldilər üstümüzə, yerimizdən bir qətrəmizi qopara bilmədilər. Çünki biz bu Vətənin daşı olduq. Yerindən tərpənməyən, düşdüyü yerdə ağır olan daşı...***



Qardaş arxadır, dayaqdır. Qardaş düşmən çəpəridir. sinəsini qabağa verib arxadakıları qoruyan, nümusunu, qeyrətini çəkən, elinin qızını-gəlinini göz bəbəyi kimi qoruyan, ağsaqqal-ağbirçəyinə saygı ilə yanaşan oğuldur. Düşmənin əyri baxan gözünü oyan, el qoruqçusu, torpaq sevdalısı, məmləkət qeyrətlisidir. Həddi-buluğa çatan gündən kişiliyini hiss edən, çiyinlərindəki yükün nə olduğunu anlayan, bütün bunlara görə də həyat tərzini quran igidir, ərdir.

Vətənin sərhədlərini oğul üçün binə edib Yaradan. Edib ki, dünyaya göndərdiyi ərlərlə qorunsun parça-parça ayırıb məmləkətlərə, Vətənlərə, ölkələrə böldüyü yer üzü. "Məhz oğullarla qorunmalıdır Vətən" deyib Yaradanımız. Bu missiyanı, vəzifəni yaradılışdan onlara bəxş edib.





Biz hamımız-kişili-qadınlı torpağın qardaşıyıq, onu mühafizə edənlərik. Qadınlara yaradan o vəzifəni verib ki, dünyaya oğul gətirsinlər. O oğullar isə torpağa canlarını qurban verməki üçün gözlərini dünyaya açsınlar. Elə buna görə də deyilməyibmi ki, oğul torpaq payıdır. Yəni istənilən bir məqamda yaşından asılı olmayaraq o torpağın-ən çox sevdiyi sevdalısının payına çevrilə bilər...



Biz ölkəmizə vətəndaş olduq. Xalq şairi rəhmətlik Məmməd Araz yazırdı ki, Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı. Biz ölkəmizin vətəndaşı olmağı əsrlərdir haqq edirik. Çünki öncə onun daşı olmağı bacarmışıq. Tarixin o üzündən bəri əllərimizlə yazdığımız salnamələri vərəqləsək, görərək ki, bu xalq yadelli işğalçılarla, torpağımızda gözü olanlarla, bu səbəbdən də ölkəmizə yürüşlər edənlərlə necə mübarizələr aparıb, bu torpağın hər bir qarışının qorunması, mühafizə olunması üçün canından keçib. Beləliklə də biz Vətənin daşı olmuşuq ki, bu Vətəni, bu torpağı bu günlərlə gətirib çıxara bilmişik. Deməli, biz həqiqətən də ölkəmizin vətəndaşı olmağı haqq etmişik.

## Çox uzağa getməyək...

Bəli, daş tariximizi kəlmə-kəlmə oxuyub öyrənmişik. Kimlərin bu xalqla hansı münasibətdə olduğunu, kimlərin üzdə, kimlərin arxada dostluğunu da, düşmənliyini də görmüşük.

Çox uzağa getməyək. yaşımızın imkan verdiyi, özümüzü anladığımız dövrlərə bir nəzər salaq. Biz haralardan haralara gəldik. Bizim başımıza nələr-nələr gəldi. Qonşuluqdan kənar qonşumuzdan-ermənilərdən söhbət açaq. Hansı ki, ötən əsrin əvvəllərindən süfrələrimizin başındakı düşmənlərimizdir bu yersiz-yurdsuzlar. Haradan gəlib bizimlə qonşu oldular, heç bilmədik. Bir də ki qonşu oldular deyəndə,onların torpağı yox idi ki, bizimlə də qonşu olalar. Bizə sığınasığına, süfrəmizin qırıq-quruğu ilə dolanadolana içimizdə düşmənə çevrildilər. Sonra torpaqlarımıza göz dikənlərin havadarları hərdən bir qarışımızı qoparıb "onların olsun" dedi və beləliklə də bu vəhşi qəbilə qulağımızın dibindəcə düşmən qonşumuza çevrildi.

Başqasının hesabına torpaq sahibi olanlar elə ki, bir qədər özlərinə gəldilər, başladılar yeni-yeni torpaq iddialarına. Yəni bunları da onlara vəsiyyət edənlər, başa salanlar var idi. Yoxsa əzəldən torpağı, bu torpağa bağlılığı, sevdası olmayan yaradılanda sonradan bu hisslər formalaşa bilməz.

Arxalarında dayananlar, əslində Azərbaycanın varlığını, sərvətini sinirə bilməyənlər erməni adlı varlıqları qızışdırıb ortaya saldı ki, bizim hüzurumuzu qaçırsınlar. Dinc yaşamağımızı, regionda söz sahibi olmağımızı əngəlləsinlər. Çünki bu dövlətin sabahındakı işıq onların gözlərini qamaşdırıb korluq həddinə gətirməkdə idi.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ermənilər qızışdırılıb yenidən ortaya salındılar. Bütün havadarlarının gücü ilə Azərbaycan topaqlarını işğal etmək, bu ölkənin bu gününü yaralamaq, o yaraların illərlə qan süzməsinə çalışdılar.Beləliklə də XIX-XX əsrin ayrı-ayrı illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar 80-ci illərin sonundan başlanan erməni işğalçılıq siyasəti ilə başa çatdı. Nəticədə həmin illərdə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün də ermənilərin havadarları ilə əlbirliyi ilə topraqlarımızn 20 faizdən artığı erməni faşistləri tərəfindən işğal edildi.

## İşğal edildi, yoxsa...

Topraqlarımız əslində ermənilərə satılmışdı. Səriştəsiz qruplaşmanın vəzifə kürsüsünə, hakimiyyətdə qalmaq arzusuna, yerlərini bərkitmək istəklərinə qurban getmişdi Qarabağ və Şərqi Zəngəzur. Lakin siyasət o qədər ikibaşlı idi ki, AXC-Müsavat cütlüyü torpaqları satmaqla yanaşı, həm də minlərlə oğul və qızımızın, günahsiz körpənin qətlinə fərman vermişdi. Vətən daşı olan torpaq sevdalılarımız əllərində ov silahı, şana, yaba, dırmıq ilə düşmənin qarşısına çıxmışdılar. Düşmən isə havadarları tərəfindən ən müasir silahlarla silahlanmışdı.

Bizim hakimiyyət həvəsliləri-miz isə torpaqları satıb otaqlarında gizlənmiuş, Qarabağ üçünkömək uman insanların dəqiqəbaşıgələn telefonları açmırdılar. İnsanlar cəbhədə kütləvi şəkildə şəhid olur, qan su yerinə axır, soydaşlarımız öz ata-baba ocaqlarından, əzəli yurdundan silah burnunda çıxarılır, qovulur, hakimiyyətdəkilər isə susmağa üstünlük verirdilər.

Bu səbəblərdən də heç vaxt işğal sözü ilərazılaşmaq istəmirəm. Erməni kim idi ki, Azərbaycan torpaqlarını işğal edə. Minlərlə insanı qətlə yetirə, minlərlə insanın 30 ilə köçkün həyatı yaşamasına səbəb ola...

Torpaqlarımız satılmışdı. Bu, tarixi faktdır. Azərbaycanlıların heç vaxt unutmayacağı, tariximizin qara bir səhifəsini təşkil edən fakt. Deməli, bəli, heç də hər kəs Vətən daşı olmağı bacarmırmış. Daha doğrusu Vətənin daşı olmaq da gərək Ulu Yaradan tərəfindən insana nəsib edilə. Çox təəssüf ki, onların bu nəsibdən payı olmadı. Tarixin səhifələrində deyil, zibilliyində yer aldılar.

## Beləliklə, 30 il...

90-cı illərin əvvəllərində minlərlə şəhid versək də, insanlar hər qarış topraq uğrundan canından keçsə də, lakin milli ordumuzun yox dərəcədə olması, hakimiyyətdə olanların isə qəti şəkildə yaxına durmaması nəticəsində torpaqlarımız anası Azərbaycandan ayrı düşməli oldu. Düşmən 30 il əzəli torpaqlarımızda at oynatdı. Sərvətlərini daşıdı, satdı-sovdu, tarixi-mədəniyyət abidələrimizi, məscidlərimizi yox etdi, bir sözlə, daşı daş üstündə qoymadı. Bu torpaqlara faşizmin ən qəddar üsullarını tətbiq etdi. Bununla bir tərəfdən də həqiqəti ortaya qoydu əslində. “Bu torpaqlar bizimdir”,-deyən ermənilərin yanlış fikirdə olduğunu elə ilk günlərdən təsdiqlədi. Çünki insan övladı özünün olanlara qətiyyən bu divanı tutmazdı.

Minlərlə məcburi köçkün ozanmankı iqtisadiyyatı çökmüş Azərbaycanın dörd bir tərəfinə yayıldı. Həmin vaxtlar insanların hansı zülmlərlə, çətinliklərlə qarılaşmasına, hansı şəraitdə yaşamasına çoxlarımız şahidik. O zamana kimi ki, Ulu Öndərimiz yenidən Azərbaycanda hakimiyyətə gəldi, AXC-Müsavat qruplaşması hakimiyyətdən uzaqlaşdırıldı. Bundan sonra iqtisadiyyatımız, sosial həyatımız kimi, məcburi köçkünlərin də həyat tərzi dəyişməyə başladı. Ancaq onlar üçün nə qədər təminatlı şərait yaradılsa da, yurd həsrəti, ocaq arzusu bir saniyə də bu insanları tərk etmədi. Minlərlə soydaşımız elə qəribliksdəcə yurd həsrəti, hicranı ilə dünyasını dəyişdi.

Torpaqlarımızdan 30 il ayrı qaldığımız illərdə 1993-cü ildən başlayaraq Ulu Öndər Heydər Əliyev tərəfindən əzəli yurdlarımızn geri alınması üçün çoxsaylı tədbirlər həyata keçirildi. Milli Ordumuz təkmilləşdirilməyə başlandı. Hələ Ulu Öndər Naxçıvanda olarkən bu addım orada atılmışdı. Çünli Öndərimiz yaxşı bilirdi ki, nə qədər ki, ordumuz yoxdur, torpaqlarımızn azadlığından söhbət gedə bilməz. Ölkə iqtisadiyyatı da həmçinin. Çökmüş iqtisadiyyat dirçəlmədən hansı müharibədən söhbət gedə bilərdi. Zəfər qazanmaq, düşməni çökdürmək üçün axı güc lazım idi.

Biz illərlə bir gün torpaqlarımızı qaytarmaq arzusu ilə yaşadıq. Ulu Öndərin başladığı, lakin ömrün vəfa etmədiyi işləri 2003-cü ildən dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyev davam etdirdi. Ölkə iqtisadiyyatı ilə ordu quruculuğu elə bir paralel şəkildə inkişaf etdirildi ki, onların tarazlığı eyni səviyyədə oldu.

2020-ci ilə qədər düz 17 il ölkə rəhbəri dünyanın ən mötəbər kürsülərindən beynəlxalq təşkilatlara üz tutdu. Onlara Azərbaycan həqiqətlərini çatdırdı. Erməni yalanlarını ifşa etdi. Sülh yolu ilə torpaqlarımızın qaytarılması uğrunda mübarizə apardı. Lakin dünya susdu. Ədalətə kar olduğu üçün deyilənləri eşitmədi və anlamadı.

Lakin dövlətimizin başçısı bütün bayram və əlamətdar günlərlə bağlı xalqa müraciətlərində həmişə onu da vurğulayırdı ki, torpaqlarımız bir gün azad olunacaq. Sülh yolu ilə olmasa, hərb yolu ilə torpaqlarımızı azad edəcəyik. Bu, tarixi ədalətdir. Bu ədalət bir gün qalib gələcək.

## Belə də oldu

2020-ci ilin sentyabr ayı... Əsl Vətən daşı, torpaq qardaşı, ölkə vətəndaşı olduğumuzu təsdiq etdiyimiz o gün-27 sentyabr. Həmin gün dövlətimizn başçısı televiziya ilə xalqa müraciət edərək İkinci Vətən Müharibəsinin başladığını bəyan etdi.

Erməni vəhşiliyinə, tamahına son qoymağın vaxtı çatmışdı. Müharibənin başlaması acı xəbərdir. Bunu kitablardan da oxumuşuq, filmlərdən də öyrənmişik, 90-cı illərdə Birinci Vətən müharibəsində isə canlı şəkildə görmüşük. Lakin dövlətimizn başçısının müharibənin başlanması ilə bağlı bəyanatını sevinclə qarşıladıq. İnanın ki, bu, dünya tarixində ilk belə hadisə idi. Bunun isə səbəbləri vardı: biz Vətənin daşı idik, torpağın qardaşı, sevdalısı idik. Əsl vətəndaş idik. Bax elə bunlara görə də Vətənin tamlığı, ərazi bütövlüyü uğrunda ölümə getdiyimizi bilə-bilə sevinirdik. Müharibəni ağlamaqla, sızlamaqla deyil, sevinclə, qürurla qarşılayırdıq.

Həmin gündən etibarən bütün Azərbaycan ayağa qalxdı. Hər kəs cəbhəyə yollanmağa can atırdı. Səfərbərlik idarələrinin qarşısı insanla dolu idi. Lakin milli ordumuz öndə idi. Könüllü gedənlərin sayı-hesabı yox idi. Bu səbəbdən də hamı gedə bilmirdi. Onlar Ali Baş Komandanın əmrini gözləyirdilər. Bir əmrlə hər kəs bir günün içərisində Qarabağda və Şəqi Zəngəzurda olmağa hazır idi.

Şiddətli müharibə gedirdi. Lakin müharibənin ilk günündən üstünlük Azərbaycan tərəfdə idi. Müharibənin ilk günündən qələbə müjdəsini dövlətimizin başçısından almışdıq. Bu sevinclə daha bir güc tapmışdıq özümüzdə, əmin idik ki, qələbə bir-birinin ardınca bizim olacaq və biz Böyük Zəfəri yaşaya biləcəyik...










## Zəfər sevincini yaşaya bildik

Tarixi Zəfər Vətən daşı olanların əsl vətəndaşlığı sayəsində qazanıldı. Ölkəmizdə yetişdirilən vətənpərvər gənclərə hərbin sevdirilməsi, torpaq sevgisinin aşılanması, əzəli yurdlarımızın uzun illər haqsızlığa qurban getməsinin, minlərlə insanın da bu ədalətsizliyə tuş gəlməsinin bütün detalları ilə çatdırılması onlarda düşmənin gözlərini oymaq, qisas almaq hissini ən yüksək həddə çatdırmışdı. Bu səbəbdən də gənclər çoxdan idi ki, o günləri gözləyirdi. Həmin gün isə 2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 10-dək düz 44 gün davam etdi. Bu dəfə də minlərlə şəhid verdik, munlərlə qazimiz oldu. Lakin bu dəfə 90-cı illər müharibəsindəki kimi əllərimiz boş qalmadı. İgidlərimiz cəbhədən evlərinə Zəfər sevinci, əzmi, qüruru ilə qayıtdılar.

Biz Zəfər çaldıq. Qarabağı vəŞərqi Zəngəzuru erməni tapdağından xilas etdik. 30 illik həsrət sona çatdı. Bütün xalq qələbə sevincini yaşadı, ölkə toy-bayrama büründü.

Bəli, şəhid verdik, ürəyimizdən qara qanlar axıtdıq. Övlad itirmək heç də asan məsələ deyil. Lakin biz analar oğulları Vətən üçün dünyaya gətiririk. Bax tək təsəllimiz bu oldu.

Ali Baş Komandanımız və rəhbərlik etdiyi Milli Ordumuz bizim namus, ləyaqət məsələmizi həll etdi. İllərlə torpaqlarımızn işğal altında olması başımıza qaxanc edənlərin yanında alnımızı açıq, üzümüzü ağ etdilər. Buna görə də şəhidlərimizin ruhu qarşısında baş əyir, Ali Baş Komandanımıza dünya durduqca minnətdarlıq edir, Milli Ordumuzla qürur duyuruq. Biz hər zaman Vətənimzin bax, belə daşı, ölkəmizin bax, belə vətəndaşı olmuşuq. İgidlik, qəhrəmanlıq, ərlik abidəsi olmuşuq. Bunu 2020-ci ilin 44 günü bir daha təsdiq etdi.

***Mətanət Məmmədova***

# Mənəvi-əxlaqi dəyərlərimizin təcəssümü: QURBAN BAYRAMI




***İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. İnsanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. AMEA Şamaxı Astrofizika Rəsədxanasının 2023-cü il hesablamalarına əsasən, Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq builki Qurban bayramı Zilhiccə ayının 10-na – Miladi təqvimlə 28 iyun tarixinə təsadüf edəcək. Qurban bayramını xalqımız işğaldan azad olunmuş ərazilərimizdə, Zəfər qazanmış Azərbaycanda qeyd edir.***

Şuşamızda, Ağdamda, Zəngilanda, Laçında və digər ərazilərimizdə qurbanlıqlar kəsiləcək. 30 ilə yaxın işğal altında qalan ərazilərimizdə xalqımızın milli-mənəvi dəyərlərinə uyğun olaraq Qurban bayramının keçirilməsi hər kəsi qürurlandırır. Xeyirxahlığın, bərabərliyin və fədakarlığın simvoluna çevrilən Qurban bayramını xalqımız qalib bir xalq olaraq qeyd edir. Tolerant mühitdə, multikultural dəyərlərə önəm verildiyi bir dövlətdə. Əlbəttə ki, bu xalqımızın böyük dəyərlərə sahib olmasının daha bir göstəricidir. Bu bayram bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Bildiyimiz kimi, sovet hakimiyyəti dövründə din və dini ayinlər, bayramlar da tənqid hədəfi olmuşdur. Azərbaycan müstəqilliyə qovuşduqdan sonra xalqın dininə, milli ənənələrinə, milli və dini bayramlarına hörmət və diqqət yetirilməyə başlandı.

### ALLAHA İNAMIN, DƏRİN ETİQADIN NÜMUNƏSİ

Qurban bayramı ən qədim bayramlardandır. Dini qurbankəsmə mərasimi islamdan da əvvəl mövcud olub, lakin o vaxtlar bu, günahdan təmizlənmək, qəzəblənmiş Allahın könlünü almaq məqsədilə yerinə yetirilirdi. Belə ki, dini qurbankəsmə islam aləmində böyük ruh yüksəkliyi, dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərə yiyələndi. İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur. İnsanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Allaha qəlbən yaxın və sadiq olduğunu sübut etmək istəyən İbrahim peyğəmbər oğlu İsmayılı qurban kəsməyə hazır idi. Lakin uca Allah bunu öz elçisinə rəva bilmədi və qurbanlıq üçün ona bir qoç göndərdi. Buna görə də Qurban bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər. İbrahimin qoca yaşında Allah ona bir oğlan uşağı - İsmayılı nəsib etmişdi. Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisə onu göstərir ki, insanlar Allahı sonsuz imanla sevməli və öz sevgilərində bu cür səmimi olmalıdırlar. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, islam dinində insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmuşdur. İslama qədər bir çox dinlərdə insanları qurbanvermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla guya Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti var idi. Bu ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları suya atırdılar. İnsan Allahın yaratdığı ən şərəfli və ən üstün məxluqdur. Allah özünün yaratdığını özü yolunda qurban kəsilməsini qəbul etmir.

### "AZƏRBAYCAN DÖVLƏTİNİN MALİYYƏ DƏSTƏYİ İLƏ BÜTÜN DİNLƏRİN MƏBƏDLƏRİ ƏSASLI ŞƏKİLDƏ TƏMİR EDİLMİŞ VƏ YA YENİDƏN TİKİLMİŞDİR"

Dünya xalqlarına nümunə olan Azərbaycan multikultural dəyərləri ilə də dünyaya öz modelini nümayiş etdirir. Mənsubiyyətindən, irqindən asılı olmayaraq, bütün insanların sərbəst fəaliyyət göstərdiyi tolerant Azərbaycan. Bu fikirlərin arxasında Azərbaycan həqiqətləri, gerçəkliklərimiz dayanır. Əgər ölkəmizdə 2200-dən artıq məscid, 13 kilsə, 7 sinaqoq və digər ibadət yerləri fəaliyyətdədirsə, deməli, bu, artıq Azərbaycanda tolerant mühitin mövcudluğunu tam əsaslandırır. Ölkədə olan hər bir millətə - ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurlara, udilərə sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanlar yaradılıb. Tariximizə diqqət etsək görərik ki, dünyanın ən qədim məscidlərindən olan Şamaxı məscidi bizim məkanda hələ 743-cü ildə tikilib. Şəkidə olan Qafqaz Albaniyası kilsəsi tarixin daş abidəsinə çevrilib. Bu gün ölkə ərazisində olan dini abidələrə dövlətimiz tərəfindən diqqət və qayğı var. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir: "Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir. Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir".

Qeyd edək ki, işğal altındakı torpaqlarımızda olan 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Tezliklə dini abidələrimiz təmir və bərpa olunacaq, yeni məscidlər istifadəyə veriləcəkdir. Artıq bu işlərə başlanılıb. İşğaldan azad olunan Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təməli qoyulan yeni məscid dini ocaq və modern memarlıq nümunəsi olacaq.

### BƏRABƏRLİK VƏ DÖZÜMLÜLÜK OVQATI

Azərbaycan xalqı belə tolerant bir mühitdə Qurban bayramını qeyd edir. Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqının əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub-saxlayıb. Azərbaycan xalqı əsrlər boyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçilib, ən mürəkkəb dövrlərdə belə, öz milli-mədəni dəyərlərini qoruyub saxlayıb.

Xatırladaq ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı ölkəmizdə dövlət səviyyəsində bayram edilir. Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Qurban bayramı xeyirxahlıq və mərhəmət duyğularının təcəssümü olmaqla yanaşı, bərabərlik və dözümlülük ovqatını da insanlarda gücləndirir.Qurban bayramının əsas mahiyyəti Allah yolunda kəsilmiş heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur.İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında, dişi heyvanların müstəsna rolu olduğuna görə, qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı, altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. İsmayıl Qurbanında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi islamda məsləhət görülmür.

Qurban bayramına dair hökmlərə və şəri qaydalara əsasən, qurban kəsmək Məkkədə həcc ziyarətini icra edən zəvvarlara vacib buyurulmuşdur. Digər yerlərdə isə maddi imkanı olan adamların qurban kəsməsi bəyənilən əməldir və Həzrət Peyğəmbərin (s) mübarək hədisinə əsasən "Adəm oğlu üçün Qurban bayramı günündə Allah yolunda qurbanlıq kəsməkdən daha gözəl bir əməl ola bilməz".Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibinin özünə götürməsi, ikinci hissənin fəqir və imkansız ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur. Qurban şükür, səmimiyyət, ixlas və mərhəmət bayramı olduğundan bu mübarək günlərdə valideynlərin və yaxınların ziyarət olunması, qocalara və yetimlərə qayğı göstərilməsi bəyənilən əməllərdəndir. Qurban kəsiləndə belə deyilməlidir: "Rəbbin üçün namaz qıl və qurban kəs!", "De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi - Allah üçündür".



Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib, onun ətini imkansızlara və kasıblara paylamalıdır. Quranda yazılıb: "Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır". Qurban bayramı mənəvi-əxlaqi dəyərlərimizi özündə təcəssüm etdirərək, insanları halallığa, paklığa və birliyə səsləyir.

Bu günlər ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir və şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman övladlarımızın nurlu xatirəsini bu mübarək bayram günlərində dərin ehtiramla yad edirik. Humanizm, xeyirxahlıq və bərabərlik rəmzi olan Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi həmrəyliyi və dözümlülüyü daha da gücləndirir, insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir.

Kəsdiyiniz qurbanlar qəbul olsun! Qurban bayramınız mübarək.

***Nəzakət ƏLƏDDİNQIZI***




# Azərbaycan ordusu böyük inkişaf yolu keçib

***"Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərsə də, bu qısa müddət ərzində ordu quruculuğunun inkişaf etdirilməsi istiqamətində ciddi işlər görə bildi. 1918-ci il 26 iyun tarixində AXC hökumətinin qərarına əsasən ölkədə ilk nizami hərbi hissənin - Əlahiddə Azərbaycan Korpusunun yaradılması ilə ordu quruculuğunun təkmilləşdirilməsi istiqamətində ilk önəmli addım atılmış oldu. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra 50 ilə yaxın müddət ərzində ölkədə ordu quruculuğu prosesi dayandı. Yalnız ümummilli lider Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra hərbi sahədə dirçəlmə başladı.***

Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın qəhrəman sərkərdəsi Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi lisey yaradıldı. Bu məktəbin fəaliyyətə başlaması ölkədə hərbi kadrların hazırlanması prosesini başlatdı, gənclər arasında hərb sahəsinə maraq daha da gücləndi, Azərbaycanda peşəkar zabitlərin hazırlanmasına imkan verdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasında hakimiyyətə gəldikdən sonra ölkədə ordu quruculuğu sürətli və davamlı olaraq inkişaf etməyə başladı: "Dahi liderin rəhbərliyi ilə hərbi qulluqçuların döyüş peşəkarlığı, döyüş ruhu artırıldı, maddi-texniki təminat yaxşılaşdırıldı, Azərbayan Milli Ordusunun formalaşması prosesi daha da sürətləndi, hərbi təhsil sisteminin inkişafı məqsədilə 1990-cı ildə Hərbi Akademiya yaradıldı.

Müstəqillik illərində ordu quruculuğunun davamlı inkişaf etməsinin əsas səbəblərindən biri də ümummilli liderin siyasəti nəticəsində Azərbaycanın NATO ilə sıx əməkdaşlıq etməsi idi. Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına, "Planlaşdırma və analiz prosesi" proqramına, "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na və digər beynəlxalq layihələrə qoşulmasını buna misal göstərmək olar.

Heydər Əliyevdən sonra onun layiqli davamçısı cənab Prezident İlham Əliyev hakimiyyətə gələrək Ulu Öndərin siyasətini uğurla davam etdirdi. Onun rəhbərliyi ilə müdafiə sənayesi inkişaf etdirildi, bu sahənin təkmilləşməsi üçün daha çox büdcə ayrıldı, Silahlı Qüvvələrimizin madditexniki təchizatı yaxşılaşdırıldı, hərbi qulluqçuların sosial təminatı diqqətdə saxlanıldı, xaricdən çoxsaylı hərbi texnikalar, avadanlıqlar, pilotsuz uçuş aparatları alındı, yerli hərbi zavodlar inkişaf etməyə başladı".

Deputat sözlərinə davam edərək bildirib ki, Yeni Komando Qüvvələrinin yaradılması daim Prezident İlham Əliyevin diqqətindədir: "Cari ilin 23 iyun tarixində Prezident İlham Əliyev, Silahlı Qüvvələrin Ali Baş Komandanı Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib. Komando Qüvvələrinin yaradılması Ordunun döyüş qabiliyyətinin artırılması üçün önəmli amillərdən biridir. Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti - bu qurumların xüsusi təyinatlı qüvvələrinin sayı İkinci Qarabağ Müharibəsindən sonra dəfələrlə artırılıb.

Görülən bütün bu işlərin sonundakı hədəf Azərbaycan Silahlı Qüvvələrinin müasirləşməsi, hərbi texnikalarımızın müasir standartlara cavab verə bilməsi idi. Cənab Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində biz bu hədəflərə nail olduq. İnkişaf etmiş ordumuzun gücü, Ali Baş Komandanın uğurlu siyasəti və Azərbaycan xalqının birliyi ilə 44 günlük Vətən müharibəsində Zəfər qazandıq.

Bu gün müasir Azərbaycan ordu quruculuğunun bütün sahələrində inkişaf edib. Hava hücumundan müdafiə qüvvələrinə görə Azərbaycan regionda aparıcı ölkələrdən biridir. II Qarabağ müharibəsində qazanılan qələbədən sonra artıq Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə ordumuzda yeni təyinatlı Komando hərbi hissəsi yaradılıb, yeni hərbi texnika və avadanlıqların alınması üçün xarici dövlətlərlə əməkdaşlıqlar edilib, Türkiyə ilə eyni standartlarda hərbi təhsilin tətbiq edilməsi üçün Milli Müdafiə Universiteti yaradılıb.

İsrail dövləti ilə hərbi əməkdaşlıq Azərbaycanın beynəlxalq hərbi strategiyasında mühüm yer tutur. Son illər bu ölkə ilə hərbi sahədə əməkdaşlıq dinamik inkişaf edir. Azərbaycan İsrailin müdafiə sənayesi şirkətlərindən müasir pilotsuz uçuş aparatları, radarlar, raket sistemləri və sahil mühafizə vasitələri alır. 2005-ci ildən başlayaraq Azərbaycan və İsrail arasında hərbi sahədə fəal əməkdaşlıq aparılır.

26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününün təsis edilməsi də birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin 22 may 1998-ci il tarixli Fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü kimi elan edildi və hər il bu əlamətdar tarix dövlət bayramı kimi qeyd edilir".

***Ləman Əlizadə***

# Qurban bayramında necə qidalanmalı?



## AYDINLIQ GƏTİRİLDİ

"İlk növbədə onu qeyd edim ki, orqanizm standart çalışma mexanizminə malik olduğu üçün istər Qurban bayramın da, istərsə də digər bayramlarda balanslaşdırılmış və sağlam qidalanmağa üstünlük verilməlidir. əgər hər hansı bir bayramda bu qidalanma rejimi pozulursa, mütləq şəkildə fəsadlar üzə çıxır. Ona görə də bayramlarda, xüsusilə də Qurban bayramında diqqət edəcəyimiz əsas məqamlardan biri gün ərzində qəbul edəcəyimiz qidanın miqdarını keçməməkdir. Yaxşı olar ki, qidalanmanı axşam saat 6-7 üçün bitirək. Qəbul olunan ət və digər qidalar yaxşı həzm olunsun". Bu sözləri SİA-ya açıqlamasında sağlam qida üzrə mütəxəssis Məhsəti Hüseynova deyib.

Onun sözlərinə görə, bayramda Qurban ətini kəsən kimi tez bişirib istehlak edirlər ki, bu da həzm sistemi üçün ağır problemlərə yol açır: "Bu xüsusilə də mədə-bağırsaq problemləri, qan təzyiqi, şəkərli diabet xəstəliyi olan insanların sağlamlığı üçün daha zərərli ola bilər. Ona görə də həmin insanlar kəsilən qurban ətlərini bir neçə saat soyuducuda saxladıqdan sonra bişirsinlər. Qurban ətini daha çox qaynadılmış və manqalda bişirilmiş şəkildə qəbul etmək faydalıdır. Əti qızartma şəklində qəbul etdikdə kanserogen maddələrin yaranmasına gətirib çıxarır ki, bu da mədə-bağırsaq sisteminin pozulmasına səbəb olur. Eyni zamanda, ətin yanında həm bişirilmiş, həm də çiy halda tərəvəzlər istehlak etmək məsləhətlidir. Bu, ətin asan həzm olunmasına kömək edir".

Mütəxəssis sözlərinə davam edərək bildirib ki, ümumiyyətlə, Qurban bayramında mütləq baytar nəzarətindən keçmiş ət kəsilməlidir: "Çünki ət kəsilərkən onda olan bir çox bakteriya və viruslar insan orqanizminə keçə bilər. Nəticədə zəhərlənməyə gətirib çıxara bilər. Əgər soyuducuda saxlanılacaqsa, əti böyük parçalar şəklində deyil, xırda-xırda kəsilmiş halda qablaşdırmaq lazımdır. Əti mənfi 18 dərəcədə üç aya qədər saxlamaq mümkündür.

Həmçinin, bayramda bir dəfəyə həddindən artıq çox çeşiddə fərqli qidalar qəbul olunur ki, bu birbaşa olaraq orqanizmin yüklənməsinə gətirib çıxarır. Yaxşı olar ki, bayram günlərində yüngül şəkildə səhər yeməyi, ondan 3-4 saat sonra isə ətdən hazırlanmış qida qəbul edilsin. Yeməyin düzgün şəkildə həzm olunması üçün fasilə verilməsi önəmlidir".

***Ləman Əlizadə***

# Nar Silahlı Qüvvələr Günü münasibətilə hərbçiləri təbrik etdi




Nar 26 İyun - Silahlı Qüvvələr Günü ərəfəsində Azərbaycan Ordusuna mənəvi dəstək məqsədilə "N" saylı hərbi hissədə xidmət edən hərbi qulluqçularla görüş keçirib. Müdafiə Nazirliyinin təşkilatçılığı ilə baş tutan tədbirdə çıxış edənlər vətənpərvər əsgərlərimizi qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibəti ilə təbrik edib, onlara çətin və şərəfli xidmətlərində uğurlar arzulayıblar. Vətənimizin keşiyində duran əsgərlərə Narın ehtiramını nümayiş etdirmək məqsədi daşıyan bu layihə mobil operatorun vətənpərvərlik üzrə korporativ sosial məsuliyyət xəttinin bir hissəsidir. Narın KSM istiqamətində həyata keçirdiyi lahiyələrlə nar.az/projects səhifəsindən tanış ola bilərsiniz.

Nar hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Nar son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Dinlərdə qurban anlayışı: Savab, yoxsa günah?

## *Müxtəlif dinlərdə qurbanın mahiyyəti, ritualların formaları, qədimdən bu günə çatan ənənələr*

***Qurban mərasimi tarix boyunca müxtəlif mədəniyyətlərdə lap qədimlərdən tətbiq olunan bir ibadət formasıdır. Qurban mərasimləri haqda ən qədim mənbələrdə- şumer yazılarında çox maraqlı məlumatlar var. Qurbanvermə mərasimi Tanrının birliyini söyləyən bütün dinlərdə (iudaizm, xristianlıq, vaişnavizm, zərdüştlük, islam və s.) vacib prinsiplərdən biridir. Bu səbəbdən bütün dinlərdə qurban mərasimləri var. Amma bir-birindən fərqli formalarda.***

Bəzi dinlərdə Tanrıya canlılar da qurban edilir. Bu, həm satanizmdə olduğu kimi insan, həm də islam və iudaizmdə olduğu kimi heyvan qurbanı ola bilər. Amma



digər Şərq dinlərində, əsasən zərdüştlük, induizm, vaişnavizm, buddizm, çaynizmdə Tanrıya qansız qurbanlar verilir. Bu qurbanların əsasını təbiətin nemətləri- meyvə-tərəvəz, süd məhsulları, gül-çiçək, ətirli çubuqların tüstüsü təşkil edir.

### Yəhudilikdə Tanrıya nələr qurban edilir?

Yəhudilikdə qurban insanın günahının təmizlənməsi üçün vacib hesab edilir. Onlara görə, bütün qurbanlar günahların bağışlanmasını təmin etmək üçün




lazımdır. Yəhudilərin müqəddəs kitabı sayılan "Tövrat"da ənənəvi ibadətlər əsasən qurbanlara həsr edilib.

Yəhudilər həm qanlı, həm qansız qurban verirlər. Qanlı qurban dedikdə heyvan qurbanı nəzərdə tutulur, yəhudilər müsəlmanlardan fərqli olaraq xırda heyvanları- quş, toyuq kimi qurbanlar da verirlər. Amma daha cox qurbanı qansız verməyə üslünlük verirlər. Bu kimi qurbanlar əsasən şirniyyatlardan, tərəvəz və meyvələrdən verilir.

### Xristianlıqda Tanrıya hər şeyi qurban vermək olar

Xristianların qurban anlayışı yəhudilərinkindən qaynaqlandığından onunla bir çox ortaq istiqamətləri var. Lakin xristianlar, yəhudilərin "Fısıh" kimi tanınan qurban bayramındakı ruhi məqsədin İsa Məsihin gəlişi ilə tamamlandığına inanırlar.

"İncil"də qurban qanının axıdılması ilə günahların bağışlanmasının işarələndiyi deyilir. Amma heyvan qanı ancaq simvol xüsusiyyətini daşıdığından günahların bağışlanmasını təmin edə bilməz. Tanrının İbrahimin oğlunun yerinə göndərdiyi qoç qurbanın bir simvolu kimi qəbul olunur.

"Müqəddəs təkliflərinizi və qurbanlarınızı götürüb Rəbbin seçəcəyi yerə gedəcəksiniz. Yeməli nemətlərinizi, əti və qanı Rəbbin hüzurunda təqdim edəcəksiniz. Qurbanınızın qanı Tanrınızın sunağına axacaq. Amma əti yeyə də bilərsiniz (Qanunun Təkrarı 12:23-27).

"Bibliya"da Tanrıya hər şeyin



qurban verilə biləcəyi vurğulanır, ən böyük qurban isə İsa peyğəmbərin bütün insanların günahlarının bağışlanılması üçün özünün fəda etməsi hesab olunur.

### İslam dinində qurban anlayışı nəyi ehtiva edir?

İslam dininə görə, qurbankəsmə İbrahim peyğəmbərin adı ilə bağlıdır. Dini rəvayətə görə, İbrahim bir oğlu olacağı təqdirdə onu münnətdarlıq üçün Tanrıya qurban etməyi niyyət edib. Oğlu İsmayıl dünyaya gəlir və bəlli bir yaşa çatanda Tanrı öz peyğəmbərini sınamaq üçün yuxusunda İbrahimdən sözündə durmasını və oğlunu qurban etməsini tələb edir.

İbrahim Tanrının bu əmrini tərəddüdsüz yerinə yetirməyə gedir. Amma Tanrı öz bəndəsinin sədaqətinə inandığı və onun övlad qanı axıtmaması üçün qeybdən qoç peyda edir və oğlunun əvəzində onun qurban edilməsi istənilir.

İslama görə qurban edilən heyvan Allah üçün kəsilir. "Onların nə ətləri, nə də qanları Allaha çatır. Ona sadəcə sizin düşüncə və niyyətiniz çatır". (Həcc 22/37)

İslamda "pulla qurban payını pulla almaq və qurban əti satmaq" kimi bir anlayış yoxdur. Yəni, qurban kəsilən heyvanın əti ehtiyacı çox olanlara paylanmalıdır.

Qurban bayramında adətən qoyun qurbanı kəsilir. Amma bundan başqa, inək, dəvə, keçi də kəsilməsi mümkündür. Bəzi islamşünaslar deyir ki, toyuq, xoruz və digər bu kimi quşların qurban kəsilməsi düzgün deyil.

Lakin dinşünas-alim Nəriman Qasımoğlu isə bu sözlərlə tam olaraq razılaşmır. İlahiyyatçı deyir ki, qurban kəsmək kütləvilikdən uzaqdır: "Qurban kəsmək əmri yalnız və yalnız Həzrəti peyğəmbərə xitab edilən bir xüsusdur. Başqa müsəlmanların qurban kəsmələri bir fərz deyil, amma peyğəmbərin bir sünnətini, yəni onun qoyduğu qayda-qanunu icra etmək mütləqdir. Bu, İlahidən gələn bir əmr olub, zamana və hadisəyə görə. Tanrı indi hamıya əmr etmir ki, kəsməlisən. Ey müsəlmanlar, qurban kəsin! - deyə bir əmr yoxdur".



Bir neçə il əvvəl haqqın dərgahına qovuşmuş nüfuzlu türk ilahiyyatçı alimi, Quranın ən güclü tədqiqatçılarından biri Yaşar Nuri Öztürk də hesab edirdi ki, Quranda heyvan kəsmək deyə bir ibadət yoxdur: "Çünki Qurban Allaha yaxınlaşmaqdır, Ona isə qan tökərək yaxınlaşmaq olmaz". Alimin fikrincə, bu sadəcə adətdir və Həccə gələnlərə yemək təqdim etmək üçün edilib: "Peyğəmbərin səhabələri də heyvan kəsməyib və bunun dini əmr yox, sadəcə adət olduğunu deyiblər. Peyğəmbər özü isə yalnız Həcc vaxtı qonaqlarına yemək vermək üçün heyvan kəsdirib".

Alim islam dininin qurban kəsmək adlı bir ibadəti olmadığını bu çıxışında Qurana əsasən izah edib- https://www.youtube.com/watch?v=_K-vuwXn4fY

### Vaişnavizmdə və induizmin digər qollarında qurban

Bəşəriyyətin ən qədim dinlərindən biri olan vaişnavizmə görə, Tanrının müqəddəs adlarının tərənnümü (zikr)- qurbanların ən böyüyü hesab edilir. Krişnaçılar deyirlər ki, Tanrı öz adlarına bütün transendental enerjilərini hopdurub. Bu dövrdə qurtuluş ancaq və ancaq Tanrının müqəddəs adlarının zikri ilə əldə edilə bilər.

Bakı Krişna Şüuru Cəmiyyətinin üzvü, tədqiqatçı ilahiyyatşünas Ramil Əliyev deyir ki, Qurban- insanın pis keyfiyyətlərinin Zikr odunda yandırılması anlamındadır: "Krişna şüurunda qurban əsasən meyvə-tərəvəzdən, süd məhsullarından, eyni zamanda təzə-tər çiçəklərdən və ətirli çubuqlardan (buxur) verilir. Qurban mərasimi əsasən böyük bir ocağın kənarında həyata keçirilir. Tanrını öyən, vəsf edən nəğmələr söylənir və ocağın kənarına Tanrıya təklif edilən bütün qidalar düzülür. Daha sonra Tanrının bu qidaları qəbul etməsi üçün müvafiq dualar-mantralar oxunur. Vaişnavlar inanırlar ki, Tanrı ona təklif edilən qidalara öz enerjisini hopdurur".

R.Əliyev deyir ki, belə qurban Allahın verdiyi bütün nemətlərə görə Ona bir növ minnətdarlıqdır: "Vaişnavların müqəddəs kitablarında- 5 min il əvvəl göndərilmiş "Baqavad-Qita"da və bütün Veda külliyyatında qurban anlayışı digər dinlərdən kifayət qədər fərqlənir. İnsanın Tanrıya öz sevgisini, vaxtını sərf etməsi, pis vərdişlərdən uzaq olması, xeyirli əməllərlə məşğul olması da bir növ qurban hesab olunur.

"Baqavad-Qita"da qurbanla bağlı belə deyilir:

"Əgər insan Mənə sevgi və sədaqətlə yarpaq, gül, meyvə və ya su təklif edərsə, Mən bunu qəbul edərəm" (9/26).

"Tanrı fədailəri yalnız qurban edilmiş qida yediklərinə görə, hər cür günahdan azad olurlar. Qidanı hissi həzz üçün hazırlayanlar isə, əslində haram qida yeyirlər"-(3/13).

Krişna Şüurunun açaryası (böyük ustadı) Baktivedanta Svami Prabhupada "Baqavad-Qitaya" yazdığı şərhlərində bu cümləri belə izah edir: "Uca Tanrıya fədaisinin Ona sevgi ilə xidmətindən başqa heç nə lazım deyil. Əgər fədai Ona təmiz və sadə bir qida təklif edərsə, Tanrı bunu qəbul edəcək. Əsl fədai bütün həyat fəaliyyətini Tanrıya həsr etməli, hər şeyini Ona qurban verməli, daim Onu düşünməli, Onun müqəddəs adlarını zikr etməlidir".

*Ardı Səh. 13*

ARAŞDIRMA

# Dinlərdə qurban anlayışı: Savab, yoxsa günah?

*Müxtəlif dinlərdə qurbanın mahiyyəti, ritualların formaları, qədimdən bu günə çatan ənənələr*



Əvvəli-Səh-12

### Buddizmdə və Caynizmdə qurban necədir?

Buddizmdə Buddaya səcdə edilir. Bu¬ddist məbədə daxil olanda əvvəlcə Buddanın murtisinə (heykəlinə) təzim edir və Buddaya çiçək, ətirli ağacların tüstüsünu (buxur yandırmaq), meyvə, tərəvəz təklif edir. Hər bir buddistin evində Buddanın kiçik heykəli-murtisi var. Buddistlərə görə qurban qansız olmalıdır. Qurban heç bir canlıya zərər vermədən həyata keçirilməlidir.



Qurbanlar bir qayda olaraq təmiz və saf tərəvəzlər, eləcə də meyvələrdən olur. Buddanın murtisinin qarşısına qoyulan qurbanların qəbul edilməsi üçün təyin edilmiş dualar oxunur. İnanca görə təklif olunmuş qidaların sonra insanlar tərəfindən yeyilməsi xoşbəxtlikdir. Çünki o qidalara Buddanın ölməz enerjisi hopub.

Əvvəllər sərbəst şəkildə dərvişlik- zahidlik edən çaynist rahiblər, daha sonralar monastırlarda məskən saldılar. Rahib və rahibələr hər gün müqəddəs duaları oxuyaraq, ruh və bədənlərini tərbiyə edirlər. Caynistlərin ən birinci prinsipi (ahimsa prinsipi) heç bir canlını incitməməkdir, bunun üçün də onlar qəti şəkildə ət yemirlər. Elə bu səbəbdən də çaynizmdə qurban anlayışı qansız qurban deməkdir. Yəni, onlar Tanrıya meyvə-tərəvəz qurbanı, ətirli ağaclardan hazırlanmış buxurları təklif edirlər.

Qurban mərasimi hər gün yerinə yetirilir. Tanrının murtiləri önündə ilahilər, yəni ruhi nəğmələr söylənir, Ona mahnılar qoşulur. Daha sonra murtilərin qabağına qansız qurbanlar düzülür. Bu qurbanların əsasını təmiz yuyulmuş təzə meyvələr, tərəvəzlər və buxurlar təşkil edir. Daha sonra isə Tanrıya ətirli yağlar və təzə çiçəklər təklif olunur.

### Zərdüştlükdə Tanrıya nələr qurban verilir?

Bəşər tarixinin ilk təktanrıçılıq dinlərindən hesab olunan Zərdüştlükdə (Mazd-Yasna) qurban mərasimi hər zaman ən vacib rituallardan biri olub. Qurban Tanrının ən güclü maddi enerjisi sayılan Od vasitəsilə verilirdi. Novruz, Xvarna kimi bayramlarda böyük tonqallar yandırılır, muğlar (maqlar) meyvə-tərəvəz, dənli bitkilər, gül-çiçək kimi təbiət nemətlərindən Oda atmaqla Tanrıya qansız qurbanlar verərdi. Bu mərasimi 2005-ci ildə çəkdiyimiz qısametrajlı filmdə səhnələşdirmişik-bu linkdən baxa bilərsiniz

(https://www.youtube.com/watch?v=H54k30G8WiE ).

Tanrıçılıq, şamançılıq kimi ən qədim din olan Zərdüştlükdə də qurban mərasimi humanizmə, sülhə əsaslanıb. Zərdüştlüyün müqəddəs kitabı olan "Avesta"da insan və heyvanların qurban verilməsi qətiyyətlə pislənir. Tanrıya yalnız bar verən bitkilərin məhsulları qurban edilir. Belə ki, hətta canlı olan bitkinin özünün yox, barının qurban edilməsi canlının öldürülməsinin qəbul edilmədiyini göstərir.

Nəsir Rzayevin "Möcüzəli qərinələr" kitabından bir çıxarış (Azərnəşr, 1984, səh. 35): "Avesta qanunlarına əsasən kahinlər mehrabda yanan müqəddəs odun işığında qurban (nəzir) vermə ayini keçirərkən əllərində müqəddəs "baresma çubuqlar"ı tutduqları halda, Tanrının dünyanı yaratması haqqında himn, mahnı və dualar



oxuyurmuşlar".

"Mazd-Yasna"da və sonralar onun ilkin ehkamlarının bərpası məqsədilə yaranmış maniçilik, məzdəkilik, hürrəmilik, sufilik kimi dini təlimlərdə qurban mərasimləri demək olar ki, tamamilə eyni olub. Bu mərasimlərin bəzi elementləri bu gün Novruz bayramı vasitəsilə yaşamaqdadır, amma bir çoxu unudulub.

Zərdüştlük ilkin vaxtlarda qansız qurban mərasimlərinin davamlı keçirildiyi din olub, lakin sonradan ideoloji deqradasiya gedib və heyvanların da (xüsusilə atın) qurban edilməsi də rituallara daxil edilib.

### Afrika dinlərində qurbanvermə anlayışı

Afrika mənşəli dinlərdə də qurban mərasimləri müxtəlif formalarda həyata keçirilir. Nüfuzlu ilahiyyatşünas, tədqiqatçı alim Con Feyvors özünün "Ruhi döyüşçü" adlı məşhur elmi-fəlsəfi əsərində qeyd edir ki, dünyada Afrika dini ayinləri kimi təqdim edilənlərin demək olar ki, hamısı əsl Afrika ənənələrinin təhrif olunmasından başqa bir şey deyil.

İlahiyyatçı alimin fikrinə görə, hazırda planetdə mövcud olan şüur səviyyəsi ilə icra olunan canlı varlıqların qurban gətirilməsi ayinləri ilahi gəlişə səbəb ola və ilahi şüuru oyada bilməz. İncə maddi enerjiyə həssas olan adamlar elə mərasimlərdən kənar durmalıdır. Çünki, onları əhatə edən sahə mənfi enerji ilə doludur. Bu enerji insan şüurunun dərinliyinə keçə bilir.

Qurbanvermə ayinləri qədim Misirdə də əsas dini rituallardan biri olub. Con Feyvors qeyd edir ki, o zamanlar piramidalar məbəd rolunu oynayıb, onlarda od qurban gətirmələri və ayinlər icra edilib.

"Piramidalar kiçik formada olan kainata bənzəyir, onun tikintisi yerdən aşağı planetlərdən tutmuş yüksək planetlərə və sonra da ruhi aləmə kimi bütün kainatın quruluşunu ifadə edir. Piramidanın zirvəsi ruhi aləmi ifadə edirdi.



Zirvənin üstündə qara amanit daşı qoyulub. Bu daş isə Uca Tanrının rəmzi idi".

Alim yazır ki, qədim inanclarda qurbanvermə mərasimi təyin edilmiş çərçivəyə salınmış şəkildə idi və müəyyən şərtlərə riayət etməklə, bilikli, elmli və eyni zamanda mömin adamlar tərəfindən keçirilirdi: "Kahin heyvanın bu həyatını əlindən alaraq, onu ya "yuxarı səltənət"ə yollayır, ya da növbəti həyatda onun daha yüksək səviyyəli bədən almasını təmin edirdi.

Beləliklə, qurbankəsmə nəticədə heyvanı azad edirdi. Bizim dövrdə isə adamlar heç bir müvafiq biliyi və şüur səviyyələri olmadan heyvanları qurban verirlər. Bu isə həm onların özləri, həm də onun ətrafında olanlar üçün arzuolunmaz mənfi nəticələrə səbəb olur".

### Satanizmdə qurban- bu, əsl dəhşətdir!

Satanistlər ayinlərində əsasən pişiyi qurban edirlər və kəsilmiş pişiyin ətini qovurub yedikdən sonra həmin pişiyin qanını da içirlər. Onlar qurbanlıq arasında fərq qoymurlar, yalnız pişik deyil, xoruz, dovşan kimi heyvanları da qurban verirlər. Çünki satanist ayinində əsas olan hər hansı bir heyvanın qurban edilməsidir, fərq etməz bu hansı heyvandır.

Lakin əksər satanistlər daha çox pişiyə üstünlük verirlər. Bunun da olduqca fərqli səbəbləri var. Bəzilərinə görə, pişik "nankor heyvan" olduğu üçün məhz onu seçmək lazımdır. Başqa bir səbəb isə asan əldə edildiyi üçündür. Üçüncü səbəb: insanlar pişiyi sevir və dəyər verirlər, insanları incitmək və dəyərləri heçə saymaq üçün pişiyi qurban kəsmək satanistlərə daha çox həzz verir.

Satanistlər pişiyin qanının içənə "ölümsüzlük" veriləcəyini hesab edirlər. Əsas səbəb isə, satanist inancında şeytanın "qaniçən" kimi təsvir edilməsidir. Yəni, satanist pişiyin qanını içirsə, şeytanlaşmış olur.

Qısası, satanistlərə görə, şeytana daim canlı qurban verilməlidir. İldə bir dəfə isə gənc qızın qurban edilib qanının içildiyi barədə məlumatlar var. Çünki satanizmin əsas xüsusiyyətlərindən biri də daim şər tərəfdə qərar tutmaq və həmişə dinin qadağan etdiklərini etməkdir.

Bakıda da satanistlərin gizli icmasının olduğu barədə mediada məlumatlar yayılır. Sosial şəbəkələrdə bəzi gizli profillər açmış şəxslər özlərini satanist adlandırır.

* * *

Ümumiyyətlə, ən nüfuzlu ilahiyyatşünasların fikrincə, qurban anlayışı yalnız Tanrıya xidməti özündə ehtiva edir, bu səbəbdən də hər bir insan Tanrıya nəyisə qurban verə bilər. Buraya cox sey daxil ola bilər- həm maddi, həm mənəvi cəhətdən. Bu, maddi sərvətinin bir hissəsindən əl çəkmək və onu imkansızlarla paylaşmaq da ola bilər ki, ən böyük qurban bu sayılar. Ya da zərərli vərdişlərindən, həzzverici adətlərindən, haqsız və haram sərvət əldə etməkdən, başqalarına zərər vurmaqdan və digər mənfi xüsusiyyətlərindən əl çəkmək. Bütün dinlərin ümumi fikrinə görə, qurban yalnız saf qəlbdən, təmənnasız, sevgi və səmimiliklə təklif edildikdə Tanrı tərəfindən qəbul olunur.

*Elçin Bayramlı*
*Sağlam Cəmiyyət Hərəkatının rəhbəri*

# Bəşəriyyəti sarsıdan erməni vəhşiliyi



***Mövcud faktlar və reallıqlar ondan ibarətdir ki, erməni köçəri tayfaları müəyyən xarici güclərin dəstəyi ilə Azərbaycan ərazilərinə köçürüləndən xalqımıza qarşı planlı şəkildə düşmənçilik siyasəti aparıblar. Özlərinə yer və müvəqqəti sığınacaq əldə etdikdən sonra minlərlə azərbaycanlı soyqırıma məruz qalıb, evləri-eşikləri dağıdılıb, şəhər və kəndlər yer üzündən silinib. Təkcə iki əsr ərzində iki milyondan çox azərbaycanlı erməni vəhşiliyinin qurbanı olub. 1905-1906-cı illərdə, habelə 1918-1920-ci illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Gəncədə, Şamaxıda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Muğanda, Qarabağda və digər tarixi torpaqlarımızda dinc əhali ermənilər tərəfində qətliamlara məruz qalıblar. Sovetlər ittifaqı qurulduqdan sonra erməni vəhşiliyi rəsmi Moskvanın əli ilə həyata keçirilməyə başladı.***








Nəticədə, 1937-1938, 1947-1946, 1953-1954 illərdə yüz minlərlə azərbaycanlı tarixi torpaqları olan Qərbi Azərbaycandan deportasiya edildi. Köçürülən insanlar yeni ərazilərə, yeni təbiət aləminə uyğunlaşa bilmədiklərindən həyatlarından oldular. Bu vəhşilik 1988-ci ildən daha amansız və sürətlə aparıldı, nəticədə 250 min soydaşımız İrəvandakı, Gorusdakı, Dərələyəzdəki, Qafandakı və digər doğma yurdlarında dişləri, dırnaqları, min bir əziyyət və zəhmətlə qurduqları ev-eşiklərindən oldular. Erməni vəhşiliyi Qarabağı işğal etdiyi zaman da davam etdirildi. Xaricdəki qüvvələrdən hərbi, siyasi dəstək alan erməni terrorçu hərbi birləşmələri Qarabağı işğal edib, 1 milyona yaxın insanı ev-eşiyindən didərgin saldılar. Ermənilərin vandal hərəketlərinə və soyqırımı siyasətinə yalnız 2020-ci il 27 sentyabrında başlayan və 44 gün davam edən hərbi əməliyyatlarla son qoyuldu. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərində cıxışı zamanı demişdir: "Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir".

### Erməni vandalizmi bəşəriyyətə təhlükə yaradır

Erməni vandalizminin bütün izləri Şuşada görünməkdədir. Vəhşi toplum tarixi şəhərimizin bütün küçə və meydanlarını, binalarını dağıdıb, viran qoyublar. Erməni vəhşi toplumu 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər.Bu gün işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Qarabağımızın incisi, Türk dünyasının mədəniyyət paytaxtı Şuşada yeni həyat canlanır. Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərində aparılan quruculuq, abadlıq işləri barədə demişdir: "Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Şuşanı erməniləşdirmə cəhdlərinə son qoyulub. Otuz il onlar çalışırdılar ki, Şuşanı erməniləşdirsinlər, nail ola bilmədilər. Bu, onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!".

Erməni işğalı zamanı məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli-mənəvi dəyərləri təhqir edilmişdir. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sırada vurğulanmalıdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur. Bütün qeyd olunan bu və digər abidələrimizlə yanaşı, Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələrini də qeyd etməliyik. Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığının bariz nümunəsidir. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdlarını tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi.

### Qərbi Azərbaycan xalqımızın min illik tarixini özündə birləşdirən doğma və əziz diyardır

Beynəlxalq aləmə, o cümlədən tərəqqipərvər xalqlara məlum olan fakt ondan ibarətdir ki, Qərbi Azərbaycan xalqımızın min illik tarixini özündə birləşdirən doğma və əziz diyardır. Burada millətimizin keçmişi var, ölkəmizin tarixinə görə ən qədim bölgələrdən biridir. Burada mövcud olan qəbiristanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir. Əhalisi soyqırım və deportasiyalara məruz qalmış tarixi Azərbaycan ərazilərindən biri də qədim Zəngəzur torpağıdır. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Came, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib. Erməni vandalları işğal etdikləri Azərbaycan ərazilərində tarixi memarlıq nümunələrini dağıdıb, izlərini silməklə yanaşı, bəzi tarixi nümunələri "özününküləşdirməyə" cəhdlər göstərmişlər. Ancaq bu dayaz və sərsəm düşüncəli vandallar anlamırlar ki, müasir dövrün texnoloji yenilikləri hər cür saxtakarlığı aşkarlamağı bacarır. Bu baxımdan, qısa müddət sönra aradşırmalar nəticəsində demokratik dünya bir daha erməni saxtakarlığından geniş və ətraflı məlumat ala bildilər. Bu isə erməni daşnaklarının məkirli niyyətlərinin və mənfur siyasətlərinin bir daha beynəlxalq aləm qarşısında ifşası deməkdir.

**İ.ƏLİYEV**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

PROBLEM

# Asılılığın ən dəhşətlisi – Narkomaniya!

## *26 iyun Narkomaniya ilə Beynəlxalq Mübarizə Günüdür*









### Ekspert: Hər bir narkoman özündən sonra 5-10 nəfəri narkotikdən istifadəyə cəlb edə bilir

1987-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası narkomaniyadan azad, sağlam cəmiyyət məqsədinə nail olmaq, bu sahədə beynəlxalq aləmdə fəaliyyət və əməkdaşlığı gücləndirmək məqsədilə 26 iyun tarixini "Narkomaniya və Qaçaqmalçılıqla Beynəlxalq Mübarizə Günü" kimi qəbul edib.

Dünyada ən azı 275 milyon insan narkotikdən istifadə edir və bu insanların 13 faizi (təxminən 36 milyonu) narkomaniyadan müalicə alır. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin (UNODC) statistikası göstərir ki, 2030-cu ilə qədər bütün qitələrdə milyonlarla insanın narkotik istifadəsi daha da artacaq. Fərqli dərman növlərinin hər bir qitədə daha geniş istifadə edildiyini ortaya qoyan hesabatda ümumi məlumatlar dünyada narkotik istifadəsinin hər yerdə artmağa meyilli olmasından bəhs edilir.

Maarifləndirmə işinin aparılması və ictimaiyyətin məlumatlılığının artırılması üçün 26 iyun tarixində müxtəlif tədbirlər keçirilir. Tədbirlərdə, təlimlərdə sağlam həyat tərzinin vacibliyi və narkotik maddələrdən istifadənin qarşısının alınmasının əhəmiyyəti vurğulanır və narkotikdən istifadənin zərərlərinə diqqət çəkilir. Maraqlıdır, bu tədbirlər nəticə verirmi?

### Ekspert: "Real rəqəm statistikada göstəriləndən çoxdur"

Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri, Narkoekspert-araşdırmaçı Emil Maqalovun sözlərinə görə, hazırda Azərbaycanda statistikaya məlum olmayan təxminən 300 000 insan müntəzəm olaraq narkotik vasitələrdən istifadə edir: "Narkomaniya ilə bağlı rəsmi statistikada 36 000 min narkoman olduğu bildirilir, lakin bunlar könüllü və ya məcbur olaraq tibbi reyestrə daxil olanlardır. Tibb müəssisələri isə ildə 5 mindən çox insanı narkomaniyadan müalicə edə bilməz. Mənim statistikasıma görə, Azərbaycanda narkomanların 10%-i məktəblilər, 50% -i 16-30 yaşlı gənclər, 40% -i isə yaşlı insanlardır. Narkotiklərə başlamanın orta yaşı 16-18 yaşdır. Aidiyyəti qurumların çox böyük səylərinə baxmayaraq 12-15 yaşlı uşaqların narkotikdən istifadə faizi də artır. Bəzi hallarda da narkoman olan valideynlər uşaqları narkomaniya bəlasına salır".

Ekspert bildirir ki, narkotiklər əsasən gənclər üçün əyləncə yerlərində - diskotekalar, kafe və klublarda yayılır. Respondentlərin 60%-i narkotiki ilk dəfə orada sınaqdan keçirib: "Hər bir narkoman özündən sonra 5-10 nəfəri narkotikdən istifadəyə cəlb edə bilir. Son illər narkotiklərdən ölənlərin sayı 12 dəfə, uşaqlar arasında isə 2 dəfə artıb. Narkomanların narkomaniyaya başladığı andan etibarən təxmini ömrü orta hesabla orqanizmdən aslı olaraq 4-5 ildir. Birinci dəfədən ölənlər də az deyil. QİÇS-ə ( SPID ) yoluxma hallarının artmasının əsas səbəbkarı da narkomaniyadır. Bu gün cinayətlərin təxminən 70%-i narkomaniya zəminində baş verir. Soyğunçuluq, oğurluq, qətllər bir doza narkotik uğrunda törədilir".

Emil Maqalov deyir ki, narkomaniya statistikası göstərir ki, narkomanların yalnız 5-6 faizi sağalır. Narkomaniyanın əlamətlərini bilmək, övladlarınızın təhlükəsizliyinə zəmanət verəcək, həyatını xilas etməyə və övladınıza vaxtında kömək etməyə imkan verə bilər. Bir yeniyetmənin davranışında narkomaniyanın əsas əlamətlərinə sosial dairənin dəyişməsi daxildir. Məsələn, yeniyetmə köhnə dostları ilə ünsiyyət qurmur. Əvəzində açıq-aşkar tərəddüdlə danışdığı yeniləri peyda olur. Telefonla danışarkən gizli, monohecalı və ya qeyri-müəyyən ifadələrlə danışır. Daim tək qalmağa, tək otağa qapanmağa, gizlənməyə çalışır. Tez-tez evdən çıxıb, gec qayıdır. Əvvəllər sevdiyi işlə maraqlanmağı və etməyi dayandırır. Evdə ilk yardım dəstinə dərmanlara maraq da yarana bilər. Ani əhval dəyişikliyi, aqressivlik, laqeydlik və ya artan həyəcan və ya şənlik nəzərə çarpır. Hərəkətlər kəskin olur və həmişə yaxşı əlaqələndirilmir. Narkomaniyanın əsas əlamətlərindən biri də yeniyetmənin pul xərclərinin artmasıdır".

### Narkomaniyaya qarşı mübarizə effektivdirmi?

Ekspetin sözlərinə görə, narkomaniyaya qarşı mübarizə son dərəcə mühüm vəzifədir və bu tək aidiyyəti dövlət qurumlardan asılı deyil: "Narkomaniya ilə mübarizə yolları fərqlidir. Əsas olanlar arasında sosial, tibbi və informasiyanı, sosial şəbəkələri də qeyd etmək lazımdır. Bütün dövlət qurumlarının əvəzinə Azəbaycan polisi narkotiklərlə mübarizə aparır, illərdir ki, gücləndirilmiş iş rejimində işləyirlər və demək olar ki, MDB ölkələri arasında narkotiklərlə mübarizə sahəsində ən yaxşı nəticə verə bilir. Amma bu tək polisin işi deyil, həm də QHT-nın və ictimai sekotrun işidir. QHT-na Dövlət Dəstəyi Agentliyi isə bu istiqamətdə az maliyyə ayırır, sonuncu qrant müsabiqəsində də bunun şahidi olduq. Ölkə üzrə bu sahədə 3 QHT layihə təqdim etmişdi, yalnız birinə büdcə ayrıldı. Ona görə deyirəm ki, dövlət dəstəyini yalnız güc strukturunda hiss edirik, ictimai sektorda yox. İctimai sektor maarifləndirmə işləri həyata keçirir, öz təcrübəmdən də deyə bilərəm ki çox effektiv olur təlimlərimiz".

Emil Maqalov narkomaniya ilə bağlı tədbir, təlim və müzakirələrdə eyniliyin tərəfdarı olmadığını deyir: "İllərdir bu tədbirlərdə hər dəfə eyni sözlər, eyni mesajlar və əsas da eyni sosial adamlar iştirak edir. Təəssüflə qeyd edim ki əksər QHT-nın bu sahədə həyata keçirdiyi işlər effekt vermir, çünki əksəriyyəti bu işi tədbir xatirinə edir, hesabat xatirinə edir. Ümumiyyətlə, bu tədbirlərdə insanların niyə narkomaniyaya qurşanması, ik qurşanan adamların sosial-mədəni statusu, hansı şəraitdə qurşanması və s. bu kimi bir dənə də olsun sosioloji tədqiqat ortaya qoyulmur. Hələ ən mifoloji fikir də odur ki, insanlar idmanla məşğul landa narkomaniyaya risk azalır. Bəli,idmanı hardasa asudə vaxtın təşkili kimi qiymətləndirmək olar. Amma düşünürəm ki, bizdə idman siyasətinin konsepsiyası yanlışdır".

### Mübarizə hərtərəfli olmalıdır

Ekspert hesab edir ki, idmanla intellektual səviyyə bir olmalıdır: "Məsələn, Sovet dövründə orta məktəblərdə normal oxumayanları idmana buraxmırdılar. Yəni, əsas risk qrupları asosial insanların olduğunu nəzərə alıb deyə və görə bilərik ki, narko-istifadəçilərin çoxunun savadı azdır. Bunları araşdırıb təhlil edib, səciyyəvi qruplara uyğun iş aparılmalıdır. Narkomaniya ilə bağlı tədbirləri hər hansı bir fəal və öndə olan gənclərə keçməklə, gördüyümüz kimi müsbət nəticə və effekt yoxdur, hətta əksidir. Narko-tacirlərin hər yolla külli miqdarda "pul qazanma" cəddi bütün dünyada var və hələ ki, onlar qalibdir. Ümumiyyətlə, QHT lərlə əməkdaşlıq, külli miqdarda vəsait, aidiyyatı işçilərin əmək haqqının yüksəlməsi və həqiqətən işində vicdanlı insanlar olmalıdır ki, mübarizə effekt versin".

Çoxşaxəli bir problem olan narkomaniya bir çox sağlamlıq, iqtisadi, sosial və hüquqi fəsadlara səbəb olur və cəmiyyətin bəlli qisminə deyil, ümumi təsir göstərir. Buna görə də narkotiklərlə mübarizə səyləri qurumlararası əməkdaşlıq və çoxtərəfli iş prinsipi ilə həyata keçirilməlidir.

*Lalə Mehralı*

SON SƏHİFƏ

SƏS

26 iyun
2023-cü il

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

# Cadulardan necə yaxa qurtarmalı?



***Bu gün künc-bucaqda və demək olar ki, hər məhəllədə müxtəlif adlar altında öz "peşəsini" həyata keçirən saysız-hesabsız falçılar var. "İnsan maraq və duyğularını falçılıq qədər istismar edən başqa bir yol yoxdur" desək, mübaliğə etməmiş olarıq. Peyğəmbərimiz bu məsələni bir cümlə ilə ifadə etmişdir: "Kahinlər heç bir şeydir". Yəni, gələcəyi oxuya biləcəyini iddia edənlərin sözləri boşdur, bu sözlərin heç bir dəyəri və mənası yoxdur.***

ARAŞDIRMA

**SİA mövzu ilə bağlı araşdırma aparıb.**

İnanc baxımından falçılıq və fala inanmaq o qədər batil və təhlükəlidir ki, hətta insanı imandan döndərə bilər. Peyğəmbərimiz bu mövzuda bir çox hədislərində fal və buna bənzər hallar nəticəsində iman gətirənlərin Məhəmmədə nazil olanı inkar etmiş sayılacaqlarını, cənnətə girməyəcəklərini, namazlarının 40 gün qəbul olunmayacağını demişdir. Bu hədislər müəyyən təhlükədən xəbər versə də, dinində, dəstəmazında, namazında olan insanların falçılara hörmət edib, onların qapısını döyməsi çox acınacaqlı haldır.

Falçılar qeyb və gələcəyə, insan xarakteri və gözləntiləri haqqında mühakimə yürütməyə çalışırlar. Halbuki gələcəyin sahibi Allahdır. Gələcəyi ancaq Allah bilir. Quran bu haqda buyurur: "Qeybin açarları Allah yanındadır. Bunu başqa heç kim bilə bilməz".

Bütün falçıların cinlərlə birbaşa əlaqəsi olub-olmaması ayrı bir məsələdir, lakin falçılıq dinə və əqidəyə zidd bir əməl olduğundan və Peyğəmbərimiz bunu qəti şəkildə rədd etdiyindən, hadisənin şeytani yönü olduğuna şübhə yoxdur. Şeytan da cin olduğu üçün gələcəyi oxuduqlarını iddia edən, qeybdən xəbər verməyə çalışan falçılar şeytanın əlində oyuncaq halına gəliblər.

İslam dini xurafat olan falçılığı qadağan etsə də, tarix boyu istər Şərqdə, istərsə də Qərbdə, bütün dünyada insanlar bu pis vərdişdən qurtula bilməyiblər. İslamdan əvvəlki Cahiliyyə dövründə falın bəzi növləri var idi. Qumun üzərinə bir neçə xətt çəkməklə edilən falçılıq növü var idi ki, buna hattü'rreml deyilirdi. Bundan əlavə, söz və adla fal, zərlə fal, astroloji fal, qoyunun sümüklərinə, qurbanın ciyərlərinə baxaraq fal, su fal, çay fal, kofe fal, lobya fal, qurğuşun tökmə, duz fal, mum fal, əlyazma fala baxma növləri tətbiq edilmişdir.

Alimlər də bildirirlər ki, falçılıq iğtişaş mənbəyidir. Onlar deyirlər ki, fal xüsusilə ailə ixtilafları, yaxın qohumlar arasında düşmənçilik toxumunun səpilməsinə səbəb olur. Əsas qaynağı batil dinlər və inanclar olan falçılığın din, iman, Quran və İslamla heç bir əlaqəsi yoxdur. Mömin ağlını, qəlbini, imanını bu cür xurafatlarla təhlükəyə atmamalı, hər şeyin Allahın əlində olduğuna inanmalı, Rəbbinə təvəkkül etməli, dua ilə yalvarmalı, imanını möhkəm saxlamalıdır.

## Bir türk araşdırmasından falçı ilə olan müsahibəni sizə təqdim edirik:

Burçak Yıldız İstanbul Universitetinin İctimaiyyətlə Əlaqələr və Təbliğat fakültəsini bitirib. Qəhvə və tarot falına baxdığını, bunun üçün hisslərindən kömək aldığını bildirir.

### - Neçə ildir fala baxırsan?

- "Mənə elə gəlir ki, falçılıq anadangəlmə bir xüsusiyyətdir. Halbuki mən falçılığı universitetin birinci kursunda etdim. Bir dostum deyirdi ki, "Mən çox yaxşı kofe falına baxa bilirəm". Onu çaşdırmaq üçün fincanda onun demədiyi şeyləri gördüyümü bildirdim. Sonra dedilər ki, mənim dediklərim çıxdı və dostlarım arasında yayıldı. Dostlara baxarkən cüzi miqdarda gəlir əldə edə biləcəyimi kəşf etdim və işi davam etdirdim. Əvvəlcə qəhvə falı, sonra tarot, indi sarkaç və ulduz xəritələri... Hətta əl falı və üz falçılığı... Çünki falçılıq ehtiras işi kimidir, bir dəfə başladıqdan sonra müxtəlif üsulları araşdırmaq və öyrənmək istəyirsən.

İlk başladığım zaman diqqətimi cəmləməkdə çətinlik çəkirdim. Susmaq, az adam kimi xahişlərim var idi. Çünki falın 50%-i hisslər, 50%-i isə formaların təfsiridir. Əvvəlcə hər iki sahədə kifayət qədər zəif idim. Zaman keçdikcə və müxtəlif insanlara baxdıqca, vəziyyətin necə olmasından asılı olmayaraq fal baxmağa başladım. Bununla belə, kəşf etdim ki, ən çox sevdiyim yer, xüsusən də pandemiya dövründə mənim öz evimdir. İstədiyim buxur yandırıb müxtəlif yağlardan, təbii daşlardan dəstək ala bilirəm. Mən o mənəvi mühiti yaradanda hiss edirəm ki, öz qavrayışlarım daha açıq olur.

### - Bəs fal nədir? Falın fərddə təsiri necədir?

"Falın yalnız gələcək haqqında danışan hissəsi ilə tam razı deyiləm. Əgər belə olsaydı, peyğəmbərlik olardı. Falçılıq, əslində, qarşıdakı insanı oxumaq sənətidir. Fal oxuyarkən o fincanı və ya tarot kartlarını oxumursunuz. Siz digər insanın enerji sahəsini oxuyursunuz. Bu alətlər, sadəcə, bir qapıya çevrilir. Enerji sahələrimiz o qədər güclüdür ki, yaşadığımız bütün hadisələrin izlərini daşıyır və həmin izlərdən nəticə çıxararaq proqnozlar vermək olduqca asandır.

Yaxşı və ya pis olsa da, falçılıq, əslində, bir məmnunluq vasitəsidir. Falçıların əksəriyyəti insanlara ehtiyac duyduqlarını və eşitmək istədiklərini söyləyirlər. O an eşitməsi lazım olan çox şeyləri başqa adamdan eşitmək, bəlkə də ucadan deməyə cəsarəti çatmamaq, öz həyatına bir proyeksiya kimi kənardan baxa bilmək gözəl hissdir. Hətta fala inanmayan bir çox insan heç olmasa bir dəfə fal baxdırıb. Biz təbii olaraq bu cür hadisələrlə maraqlanırıq. Qeyd etdiyim falçı sözü istedadı olan və bu işi sadəcə qazanc vasitəsi kimi görməkdənsə, həqiqətən sevən insanlardır. Bu insanlar artıq özlərini tanıdırlar. Məsələn, onlar sizə heç vaxt gələcəklə bağlı birbaşa göstəriş vermirlər. Çünki gələcək heç vaxt müəyyən və aydın deyil.

### - Elmi araşdırmalara görə, falçı prosesin "avtoritar" tərəfindədir. Siz bununla razısınızmı?

- Əslində, falçıya baxdıranlar avtoritar tərəfdir. Çünki o, subyekt, mövzu isə onun həyatıdır. Düşünürəm ki, falçılar bu prosesdə ancaq yol göstərirlər. Qarşı tərəfdən gələn məsləhətlərə uyğun olaraq ünsiyyət prosesi formalaşır. Mənbə kənardan falçı kimi görünsə də, əslində, prosesi fal verən şəxs idarə edir.

### - Falçılarla bağlı ümumi müşahidələriniz varmı? Bu onlara nə üçün lazımdır? Ən çox müraciətlər hansı istiqamətdə formalaşır? Yaş həddi neçədir?

- Fala baxdıranlar əslində üç yerə bölünür: inanmayanlar, hazırda ehtiyacı olanlar və fal sevənlər. Tanıdığım bir çox insanlar falçıya heç vaxt inanmadıqlarını deyirlər. Ancaq yenə də faldan həzz alırlar. Çünki falçının nə deyəcəyi onları çox həyəcanlandırır.

Əgər insan faldan ümid gözləyirsə, həmin an həyatında çətinlik yaranır və əslində o problemə cavab axtarır. Məsələn, iş axtarır və ya aşiq olur, hətta aşiq olduğu adamdan yeni ayrılıb... İndiki vəziyyəti ilə bağlı suallar verir, arzulayır və cavab gözləyir. Bu insanlara fal açmaq daha xoşdur. Çünki problem aydındır. Düzgün bənzətmə deyil, amma falçılıq bir az psixoloji terapiyaya bənzəyir. Psixoloqlara gedib rahatlıqla deyə bilməyən insanlar falçılara açıq olurlar. Məsələn, baxdığım bürclər sayəsində tanıdığım insanların bir çox yeni cəhətlərini kəşf edirəm.

Fal baxdıranların cinsi, yaşı, təhsil səviyyəsi kimi spesifik ümumi xüsusiyyətləri yoxdur. Məsələn, mənim müxtəlif yaş qruplarından, müxtəlif gəlir səviyyələrindən olan müşrərilərim var. Ancaq belə bir qruplaşdırma aparsaq, qadınlar daha çox ulduz cədvəllərinə və qəhvə falıma inanırlar. Kişilər isə daha çox qəhvə falına və tarot kartlarına inanırlar. Ümumiyyətlə, falçı yanına gələnlər gələcəkdən xəbərdar olmaq əvəzinə, beynində olan suala cavab axtarırlar. Nəyəsə "hə" və ya "yox" cavabı axtarırlar. Yaxud istəklərinin gerçəkləşib-keçməyəcəyini bilmək istəyirlər.

***Ayşən Vəli***

## ELAN

**Milli Aviasiya Akademiyasının I kurs magistri Mustafayev Mirsədiyə verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılsın.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**